# Uşaqların zərərli informasiyadan qorunması haqqında

# Qanunvericilik

BAKI – 2021

# MÜNDƏRİCAT

Uşaqların zərərli informasiyadan qorunması haqqında Qanun .................. 5

"Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiqi barədə ...........................24

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamədə dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ..........................27

**Nazirlər Kabineti tərəfindən qəbul edilmiş sənədlər**

İnformasiya məhsulunun yaş kateqoriyalarına aid edilməsi Qaydaları ..........................................................................................30

İnformasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspertlərə ixtisas attestatının verilməsi, attestatın qüvvədəolma müddətinin dayandırılması və ya ona xitam verilməsi, ekspertlərin və ekspert təşkilatlarının reyestrinin aparılması və onların fəaliyyətinə nəzarət Qaydaları ............................................................ 37

İnformasiya məhsulunun yaş təsnifatının aparılması üzrə Ekspert Şurasının Əsasmaməsi ............................................................. 52

**Uşaqların zərərli informasiyadan qorunması haqqında qanunvericilik aktlarından çıxarışlar boş səhifədə ortada**

İnzibati Xətalar Məcəlləsi ...................................................................62

Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə Prezident Fərmanı ...........................64

Uşaq hüquqları haqqında Qanun ............................................................69

Gənclər siyasəti haqqında Qanun ...........................................................69

Təhsil haqqında Qanun ........................................................................70

Məktəbəqədər təhsil haqqında Qanun ......................................................71

İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi
haqqında Qanun ........................................................................................72

Kütləvi informasiya vasitələri haqqında Qanun ........................................75

Telekommunikasiya haqqında Qanun .......................................................77

Televiziya və radio yayımı haqqında Qanun .............................................80

İctimai televiziya və radio yayımı haqqında Qanun ..................................85

Kinomatoqrafiya haqqında Qanun ............................................................85

Teatr və teatr fəaliyyəti haqqında Qanun ...................................................86

Nəşriyyat işi haqqında Qanun ....................................................................88

Reklam haqqında Qanun ..........................................................................89

**Uşaqların zərərli informasiyadan qorunması haqqında**
AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə uyğun olaraq, uşaqların yaşına uyğun informasiya əldə etmək hüququnun həyata keçirilməsi ilə əlaqədar olaraq uşaqların onlar üçün zərərli informasiyadan qorunması tədbirlərini müəyyən edir və bu sahədə yaranan münasibətləri tənzimləyir.

## 1-ci fəsil
## ÜMUMİ MÜDDƏALAR

### *Maddə 1. Əsas anlayışlar*

1.0. Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.0.1. **uşaqların informasiya əldə etməsi** – uşaqların əldə olunması qanunla məhdudlaşdırılmayan informasiyanı, o cümlədən informasiya məhsulunu əldə edib ondan istifadə imkanı;

1.0.2. **informasiya məhsulları** – ölkə ərazisində dövriyyə və istehlak üçün nəzərdə tutulan kütləvi informasiya vasitələri məhsulları, audiovizual məhsullar, kompüter və digər elektron oyunlar, habelə mədəni-kütləvi tədbirlər və telekommunikasiya şəbəkəsi vasitəsilə yayımlanan digər informasiya məhsulları;

1.0.3. **informasiya məhsullarının yaş kateqoriyası** – bu Qanunla nəzərdə tutulmuş informasiya məhsullarının istifadəsi üçün münasib olan yaş göstəricisi;

1.0.4. **informasiya məhsullarının yaş təsnifatı** – informasiya məhsullarının bu Qanunda müəyyən edilmiş yaş qruplarına görə bölgüsü;

1.0.5. **zorakılığın və qəddarlığın nümayişi** – fiziki və ya psixi zorakılığın təsvirinin və bu kimi qəddarlıq səhnələrinin, əzab vermək və xəsarət yetirmənin, şikəst edilmənin, adam və heyvan öldürmənin və üzərində zorakılıq əlamətləri olan cəsədin təsviri;

1.0.6. **mədəni-kütləvi tədbir** – kütləvi və ya azad ziyarət üçün açıq olan yerlərdə teatr, mədəni-maarifləndirici və əyləncəli tədbirlər də daxil olmaqla kütləvi nümayiş, ifa və yaxud çıxış;

1.0.7. **uşaqlar üçün nəzərdə tutulmuş informasiya məhsulları** – mövzusuna, məzmununa və tərtibatına görə yalnız və ya əsasən yetkinlik yaşına çatmayanlara aid edilən informasiya məhsulları;

1.0.8. **ailə institutunu nüfuzdan salan informasiya** – ailə dəyərlərini inkar etməklə, yaxud ailə, nikah, analıq və atalıq kimi sosial institutların əhəmiyyətini heçə endirməklə uşaqlarda ailə-nikah sahəsi ilə bağlı təhrif olunmuş təsəvvürlər yarada bilən məlumatlar;

1.0.9. **uşaqlar üçün zərərli informasiya** – uşaqlar üçün nəzərdə tutulmayan və uşağın fiziki və ya psixi sağlamlığına mənfi təsir göstərən, o cümlədən təhrif olunmuş sosial təsəvvürlərin formalaşdırılması vasitəsilə onların mənəvi, psixi, fiziki və ya sosial inkişafında pozuntu yaranmasına səbəb olan məlumat;

1.0.10. **təbliğ** – fiziki və ya hüquqi şəxslərin uşaqların şüurunda hər hansı davranış qaydası və ya stereotipin formalaşmasına yönəlmiş, yaxud uşağı hər hansı hərəkət və ya hərəkətsizliyi etməyə təhrik etdirmək məqsədi daşıyan fəaliyyəti;

1.0.11. **cəmiyyət əleyhinə və hüquqazidd hərəkətləri təbliğ edən informasiya** – uşaqları fahişəlik, qumar və avaralıqla (o cümlədən dilənçiliklə) məşğul olmağa, milli və əxlaqi dəyərlərə qarşı

təhqiredici əməllər, eləcə də şəxslərin hüquqlarını pozan digər əməllər törətməyə həvəsləndirən məlumat;

1.0.12. **uşaqların həyat və sağlamlıqlarına təhlükə yaradan əməlləri təbliğ edən informasiya** – uşaqların həyatına, fiziki və psixi sağlamlığına təhlükə yaradan, o cümlədən intiharı, odlu silah və partlayıcı maddələrdən, narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarından, alkoqollu *və energetik içkilərdən, habelə* tütün məmulatlarından istifadəni təbliğ edən informasiya;

1.0.13. **cinayətləri təbliğ edən informasiya** – uşaqlarda cinayət törətmək həvəsi oyadan, cinayətkar mühiti, o cümlədən cinayətləri və cinayətkarları, kriminal norma və dəyərləri, cinayətkar mühitin kriminal jarqonları da daxil olmaqla atributlarını və simvollarını müsbət mənada təqdim və təbliğ edən informasiya;

1.0.14. **qorxu məzmunlu informasiya** – uşaqlarda davamlı qorxu, təlaş, yaxud dəhşət hissi yarada bilən informasiya, uydurma məxluqların dəhşətli görüntüsü və ya təsviri, eləcə də ciddi xəsarətlərin, intiharın (o cümlədən intihara cəhdin), bədbəxt hadisələrin, qəzaların və onların nəticələrinin naturalist (təbii) təsviri və ya görüntüsü, həmçinin informasiya məhsulunda arzuolunmaz vərdişlərə rəğbət aşılayan bəzi xüsusi mərasim və mistik təlimlərin, spiritizmin istifadəsi;

1.0.15. **naturalist (təbii) təsvir** – canlının, əşyanın, hadisənin, hərəkətin (hərəkətsizliyin) və onların nəticələrinin informasiya məhsulu istifadəçisinin diqqətini detallara, anatomik məsələlərə və ya fizioloji proseslərə cəlb edə bilən təsvirləri və ya görüntüləri;

1.0.16. **erotik məzmunlu informasiya** – pornoqrafik olmayan, lakin uşaqlarda vaxtından əvvəl seksual marağın oyanmasına səbəb olan informasiya məhsulları;

1.0.17. **informasiya məhsulunun işarələnməsi** – informasiya məhsulunun üzərində, onun daşıyıcısında və qablaşdırmasında yaş kateqoriyası işarəsinin göstərilməsi;

1.0.18. **uşaqların ola biləcəyi yerlər** – uşaqların ziyarət etməsi və ya olması qadağan olunmayan yerlər, o cümlədən uşaqların informasiya məhsullarına (telekommunikasiya şəbəkələrində yerləşdirilən informasiya məhsulları daxil olmaqla) girişi mümkün olan ictimai yerlər;

1.0.19. **ekspert** – bu Qanunla müəyyən edilmiş tələblərə cavab verən, pedaqogika, psixologiya və ya uşaq psixiatriyası sahəsində ali təhsilə malik və informasiya məhsulunun yaş təsnifatının aparılması məqsədi ilə ekspert rəyi verən şəxs.

### *Maddə 2. Uşaqların zərərli informasiyadan qorunması haqqında Azərbaycan Respublikasının qanunvericiliyi*

2.1. Uşaqların zərərli informasiyadan qorunması haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan və digər normativ hüquqi aktlardan ibarətdir.

2.2. Bu Qanun aşağıdakı münasibətlərə tətbiq edilmir:

2.2.1. elmi və elmi-texniki informasiya məhsullarının dövriyyəsinə;

2.2.2. yayılması terrorizm, ekstremizm, sülh və insanlıq əleyhinə cinayətlərlə mübarizə sahəsində mövcud olan qanunlarla qadağan edilən və məhdudlaşdırılan informasiyaların dövriyyəsinə.

***Maddə 3. Uşaqların zərərli informasiyadan qorunması sahəsində əsas prinsiplər***

3.0. Uşaqların zərərli informasiyadan qorunmasının əsas prinsipləri aşağıdakılardır:

3.0.1. uşaqların mənafelərinin üstün tutulması, onların hüquq və azadlıqlarının təmin olunması;

3.0.2. uşaqların həyat və sağlamlığı üçün təhlükəsiz olan, onların hərtərəfli inkişafını və sosiallaşmasını təmin edən informasiya məhsullarının dövriyyəsinə şəraitin yaradılması;

3.0.3. zorakılığın, qəddarlığın, narkotik vasitələrin və psixotrop maddələrin, alkoqollu *və energetik içkilərin, habelə* tütün məmulatlarının, cəmiyyət əleyhinə davranışın, pornoqrafik xarakterli informasiyanın təbliğinin yolverilməzliyi;

3.0.4. zərərli informasiya məhsullarının dövriyyəyə daxil edilməsinin, o cümlədən informasiya texnologiyalarından istifadə etməklə uşaqlara qarşı törədilən hüquqpozmaların qarşısının alınması;

3.0.5. uşaqların zərərli informasiyadan qorunması sahəsində beynəlxalq əməkdaşlığın həyata keçirilməsi.

***Maddə 4. Uşaqlar üçün zərərli informasiyanın növləri***

4.1. Uşaqlar üçün zərərli informasiyaya aşağıdakılar aiddir:

4.1.1. bu Qanunun 4.2-ci maddəsinə uyğun olaraq uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiya;

4.1.2. bu Qanunun 4.3-cü maddəsinə uyğun olaraq müəyyən yaş qrupuna aid olan uşaqlar arasında dövriyyəsi məhdudlaşdırılan informasiya (dövriyyəsi məhdudlaşdırılmış yaş qrupuna münasibətdə).

4.2. Uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiyaya aiddir:

4.2.1. zorakılığı və qəddarlığı təbliğ edən informasiya;

4.2.2. cəmiyyət əleyhinə və hüquqazidd hərəkətləri, o cümlədən cinayətləri təbliğ edən informasiya;

4.2.3. uşaqların həyat və təhlükəsizliyinə potensial təhlükə yaradan əməlləri təbliğ edən informasiya;

4.2.4. ailə institutunu nüfuzdan salan informasiya;

4.2.5. əxlaqdan kənar leksik (söyüş) məzmunlu informasiya;

4.2.6. pornoqrafik xarakterli informasiya.

4.3. Müəyyən yaş qrupuna aid uşaqlar arasında dövriyyəsi məhdudlaşdırılan informasiyaya aiddir:

4.3.1. zorakılığı və qəddarlığı nümayiş edən informasiya;

4.3.2. qeyri-məişət leksik (jarqon) məzmunlu informasiya;

4.3.3. qorxu məzmunlu informasiya;

4.3.4. erotik məzmunlu informasiya.

4.4. Uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiya məhsullarının uşaqların ola biləcəyi yerlərdə inzibati, texniki proqram və avadanlıq vasitələrinin tətbiq edilmədən yayılmasına yol verilmir.

4.5. Müəyyən yaş qrupuna aid olan uşaqlar arasında yayılması məhdudlaşdırılan informasiyanın dövriyyəsi bu Qanunun 7-12-ci maddələrinə uyğun olaraq həyata keçirilir.

4.6. Uşaqlar arasında dövriyyəsi qadağan edilən və ya məhdudlaşdırılan informasiyanın istehsalçısı və yayıcısı bu Qanunda müəyyən edilmiş qaydalara riayət etməyə borcludur.

# 2-ci fəsil

## İNFORMASİYA MƏHSULUNUN YAŞA GÖRƏ TƏSNİFATLAŞDIRILMASI

***Maddə 5. İnformasiya məhsulunun yaş təsnifatı***

5.1. İnformasiya məhsullarının bu Qanunun 7-ci maddəsinə uyğun olaraq yaş təsnifatı aparılır.

5.2. İnformasiya məhsullarının yaş kateqoriyasına uyğun təsnifatı müxtəlif yaş qrupuna aid olan uşaqların normaya uyğun psixi inkişafının xüsusiyyətləri nəzərə alınaraq aşağıdakı kimi aparılır:

5.2.1. "universal" – istənilən yaş qrupları üzrə dövriyyəsinə məhdudiyyət qoyulmur;

5.2.2. "6 yaşadək" – altı yaşı tamam olmamış uşaqlar arasında dövriyyəsinə yol verilir;

5.2.3. "6 yaşdan" – altı yaşı tamam olmuş uşaqlar arasında dövriyyəsinə yol verilir;

5.2.4. "12 yaşdan" – on iki yaşı tamam olmuş uşaqlar arasında dövriyyəsinə yol verilir;

5.2.5. "16 yaşdan" – on altı yaşı tamam olmuş uşaqlar arasında dövriyyəsinə yol verilir;

5.2.6. "18 yaşdan" – uşaqlar arasında dövriyyəsinə yol verilmir.

5.3. İnformasiya məhsulunun yaşa görə təsnifatlaşdırılması onun istehsalçıları tərəfindən həmin məhsulun Azərbaycan Respublikasının ərazisində dövriyyəsindən əvvəl müstəqil şəkildə və ya bu Qanunun 4-cü fəslinə müvafiq olaraq ekspertin iştirakı ilə həyata keçirilir. İnformasiya məhsulunun yayıcısı həmin məhsulun müstəqil şəkildə və ya ekspertin iştirakı ilə yaşa görə təsnifatlaşdırılmasını təmin etmədən ölkə ərazisində yaya bilməz.

5.4. İnformasiya məhsulunun yaşa görə təsnifatlaşdırılması zamanı aşağıdakılar qiymətləndirilir:

5.4.1. informasiya məhsulunun mövzusu, janrı, məzmunu və bədii tərtibatı;

5.4.2. informasiyanın müəyyən yaş kateqoriyasına aid uşaqlar tərəfindən mənimsənilməsinin xüsusiyyətləri;

5.4.3. informasiyanın uşaqların sağlamlığına və fiziki, psixi, əxlaqi inkişafına zərər vurma ehtimalı.

5.5. Təhsil müəssisələrində uşaqların təhsil və tərbiyəsi üçün nəzərdə tutulan informasiya məhsullarının qiymətləndirilməsi bu Qanunun tələbləri nəzərə alınmaqla Azərbaycan Respublikasının təhsil haqqında qanunvericiliyinə uyğun aparılır.

### *Maddə 6. İnformasiya məhsulunun yaş kateqoriyalarına aid edilməsi*

6.1. "Universal" yaş kateqoriyasına aid informasiya məhsullarına uşaqların sağlamlığına və inkişafına ziyan vurmayan ümumi istifadə üçün nəzərdə tutulmuş informasiya məhsulları aid edilir.

6.2. "18 yaşdan" kateqoriyasına bu Qanunun 4.2-ci maddəsinə əsasən uşaqlar arasında dövriyyəsi qadağan olunan informasiya məhsulları aiddir.

6.3. İnformasiya məhsulu yalnız bir yaş kateqoriyasına aid edilir.

6.4. İnformasiya məhsulunun yaş kateqoriyalarına aid edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı (**Nazirlər Kabineti**) tərəfindən müəyyən edilir.

# 3-cü fəsil

## YAŞ KATEQORİYALARINA UYĞUN İNFORMASİYA MƏHSULUNUN DÖVRİYYƏSİNƏ DAİR TƏLƏBLƏR

***Maddə 7. İnformasiya məhsulunun işarələnməsi***

7.1. İnformasiya məhsulunun işarələnməsi bu Qanunun 5.3-cü maddəsinə uyğun olaraq informasiya məhsulunun istehsalçısı və ya yayıcısı tərəfindən məhsulun və onun qablaşdırmasının üzərinə müvafiq yaş kateqoriyasına uyğun aşağıdakı işarələrdən birinin aydın şəkildə seçilən təsvirini yerləşdirməklə həyata keçirilir:

7.1.1. “6 yaşadək” - “6-” işarəsi çevrədə;

7.1.2. “6 yaşdan” - “6+” işarəsi çevrədə;

7.1.3. “12 yaşdan” - “12+” işarəsi çevrədə;

7.1.4. “16 yaşdan” - “16+” işarəsi çevrədə;

7.1.5. “18 yaşdan” - “18+” işarəsi rombda.

7.2. Ölkə ərazisində istehsal olunan kompüter və digər elektron oyunların işarələnməsi satışa çıxarılmazdan, istehlakçıya təqdim edilməzdən və ya şəbəkəyə yerləşdirilməzdən əvvəl həyata keçirilməlidir.

7.3. Aşağıdakılar istisna olmaqla, informasiya məhsulunun işarələnmədən ölkə ərazisində yayılması yol verilməzdir:

7.3.1. “Universal” yaş kateqoriyasına aid informasiya məhsulu;

7.3.2. təhsil müəssisələrində uşaqların təhsil və tərbiyəsi üçün nəzərdə tutulan informasiya məhsulları;

7.3.3. canlı efirdə yayımlanan televiziya verilişlərinin informasiya və əyləncə proqramları;

7.3.4. radio vasitəsilə yayılan informasiya məhsulları;

7.3.5. reklam və reklam xarakterli materiallar;

7.3.6. mədəni-kütləvi tədbirlər vasitəsilə yayılan informasiya məhsulları;

7.3.7. internet və sellülar (mobil) rabitə şəbəkəsi vasitəsilə yayılan informasiya məhsulları (kino, televiziya və videofilmlər, o cümlədən animasiya filmləri, kompüter və digər elektron oyunlar istisna olmaqla);

7.3.8. təsviri incəsənət və bədii ədəbiyyat əsərləri (bədii-ədəbi jurnallar və komikslər istisna olmaqla).

7.4. İnformasiya məhsulunun mədəni-kütləvi tədbirlər vasitəsilə yayılması, onun aid edildiyi yaş kateqoriyasına dair işarənin tədbirin keçirilməsi barədə afişaların və digər elanların, həmçinin onu ziyarət etmək hüququ verən biletlərin, dəvətnamələrin və digər sənədlərin üzərində yerləşdirmək yolu ilə həyata keçirilir.

7.5. Bir neçə hissədən ibarət olan və müxtəlif yaş kateqoriyalarına aid edilən informasiya məhsulunun nümayişi həmin informasiya məhsulunda əks olunan, daha yuxarı yaş kateqoriyasına aid informasiya məhsulunun işarəsi ilə işarələnməklə həyata keçirilir.

### *Maddə 8. İnformasiya məhsulunun işarələnməsinin xüsusiyyətləri*

8.1. Mətbu nəşrlərin yaş kateqoriyasına görə işarəsi aydın seçilən şəkildə və mətbu nəşrin adının şriftinə uyğunlaşdırılmış qaydada nəşrin birinci və ya titul səhifəsində yerləşdirilir.

8.2. İnformasiya məhsulunun yayımçıları televiziya yayımı, kino və video xidmətlərinin göstərilməsi zamanı hər bir informasiya məhsulunun nümayişindən əvvəl xüsusi kadrda (səhifədə) informasiya məhsulunun yaş kateqoriyasına uyğun işarəsinin və yaş məhdudiyyəti

barədə xəbərdarlığa dair mətnin yerləşdirilməsini təmin etməyə borcludurlar.

8.3. Audiovizual informasiya məhsulunun yaş kateqoriyasına uyğun işarəsi onun nümayişindən əvvəl və hər reklam fasiləsindən sonra üç dəqiqə müddətində ekranın künc hissəsində göstərilir.

8.4. İnformasiya məhsulunun yaş kateqoriyasına uyğun işarəsi aşağıda göstərilənlərin beş faizindən az olmayan sahəsini tutmalıdır:

8.4.1. teatrların, kino və video nümayişlərin və digər mədəni-kütləvi tədbirlərin afişalarının və repertuar haqqında digər elanların, o cümlədən giriş biletlərinin, dəvətnamələrin və ziyarət hüququ verən digər sənədlərin;

8.4.2. audiovizual əsərin, kompüter və ya digər elektron oyunların, kompüter proqramlarının elektron daşıyıcılarının və qablaşdırmasının.

***Maddə 9. Teleradio yayımı vasitəsilə yayımlanan informasiya məhsuluna aid tələblər***

9.1. Teleradio yayımı vasitəsilə yayımlanan və “Universal”, “6-”, “6+” və “12+” yaş kateqoriyalarına aid informasiya məhsullarının yayımlanmasına vaxt məhdudiyyəti qoyulmur.

9.2. Xüsusi dekoderlər vasitəsilə ödənişli əsasda həyata keçirilən informasiya məhsullarının telekanallarda yayımı istisna olmaqla, aşağıdakı informasiya məhsullarının yayımına məhdudiyyət qoyulur:

9.2.1. bu Qanunun 4.3.3-cü maddəsində nəzərdə tutulan “16+” yaş kateqoriyasına aid informasiya məhsulları – yerli vaxtla saat 7-dən saat 21-dək;

9.2.2. bu Qanunun 4.2-ci və 4.3.4-cü maddələrində nəzərdə tutulan, müvafiq olaraq "18+" və "16+" yaş kateqoriyalarına aid informasiya məhsulları – yerli vaxtla saat 6-dan saat 23-dək;

9.3. "18+" yaş kateqoriyasına aid informasiya məhsulu teleradio vasitəsilə yayımlanarkən bu informasiya məhsulunun yaş kateqoriyası haqqında xəbərdarlıq televiziya yayımı zamanı işarə, radio yayımı zamanı isə səsləndirmə ilə həyata keçirilir.

### *Maddə 10. İnformasiya məhsullarının telekommunikasiya şəbəkələri vasitəsilə yayımının xüsusiyyətləri*

10.1. Telekommunikasiya xidmətləri göstərən fiziki və hüquqi şəxslər "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq uşaqların zərərli informasiyadan qorunması üçün tədbirlər görməlidirlər.

10.2. Uşaqların ola biləcəyi yerlərdə onların zərərli informasiyadan qorunması üçün telekommunikasiya xidmətləri göstərən fiziki və hüquqi şəxslər tərəfindən müvafiq tədbirlər texniki proqram və avadanlıq vasitələrinin tətbiqi ilə həyata keçirilir.

10.3. İnternet informasiya ehtiyatlarında informasiya məhsulunun uşaqlar arasında yayılmasını məhdudlaşdıran xəbərdarlıq mətni əks olunmalıdır.

### *Maddə 11. Uşaqlar üçün nəzərdə tutulan informasiya məhsullarının dövriyyəsinə dair əlavə tələblər*

11.1. Uşaqlar üçün nəzərdə tutulan informasiya məhsullarında (telekommunikasiya şəbəkələri, o cümlədən internet şəbəkəsi vasitəsilə yayılan informasiya məhsulları və sellülar (mobil) rabitə şəbəkəsi də

daxil olmaqla) onların zərərli informasiya məhsulunun hazırlanmasına cəlb edilməsi barədə elanların yerləşdirilməsinə yol verilmir.

11.2. Məktəbəqədər təhsil müəssisələrində uşaqların təlimi üçün nəzərdə tutulan informasiya məhsullarının məzmunu və bədii tərtibatı altı yaşadək uşaqlar üçün nəzərdə tutulan informasiya məhsullarının məzmununa və bədii tərtibatına uyğun olmalıdır.

11.3. Uşaqlar üçün kino və video xidmətlərin göstərilməsi zamanı, uşaq teleradio proqramlarında və verilişlərində, uşaqlar üçün nəzərdə tutulmuş dövri mətbu nəşrlərdə yayılan reklam onun yerləşdirildiyi informasiya məhsulunun yaş kateqoriyasına uyğun olmalıdır.

### *Maddə 12. Uşaqlar üçün qadağan olunan informasiya məhsullarının dövriyyəsinə dair əlavə tələblər*

12.1. Məhdud şəxslər dairəsində yayılması nəzərdə tutulan mətbu nəşrin birinci və sonuncu səhifəsində, çap məhsulunun və digər poliqrafik məhsulun üz və arxa qabığında uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiyanın əks olunmasına yol verilmir. Əks halda, həmin informasiya məhsulunun yayılmasına yalnız bağlı qablaşdırmada yol verilir.

12.2. Uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiya məhsulunun uşaqlar üçün nəzərdə tutulmuş təhsil müəssisələrində, tibb, sanatoriya-kurort, bədən tərbiyəsi və idman, mədəniyyət, istirahət və sağlamlaşdırma müəssisələrində və ya həmin müəssisələrin sərhədindən yüz əlli metrdən az olan məsafədə yayılmasına yol verilmir.

# 4-cü fəsil
## İNFORMASİYA MƏHSULUNUN EKSPERTİZASI

***Maddə 13. İnformasiya məhsullarının ekspertizasına dair ümumi tələblər***

13.1. Yaş təsnifatının aparılması məqsədi ilə informasiya məhsulunun ekspertizası müvafiq icra hakimiyyəti orqanından (**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi**) ixtisas attestatı almış fiziki şəxslər (ekspertlər) tərəfindən bu Qanunun 14-cü maddəsində müəyyən edilmiş qaydada həyata keçirilir. Şəxsə ixtisas attestatının verilməsi üçün onun işlədiyi hüquqi şəxs (ekspert təşkilatı) bu barədə müvafiq icra hakimiyyəti orqanına (**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi**) müraciət edir. Ekspertlərin və ekspert təşkilatlarının reyestrinin aparılmasını və onların fəaliyyətinə nəzarəti müvafiq icra hakimiyyəti orqanı (**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi**) həyata keçirir.

13.2. İnformasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspertlərə ixtisas attestatının verilməsi, attestatın qüvvədə olma müddətinin dayandırılması və ya ona xitam verilməsi, ekspertlərin və ekspert təşkilatlarının reyestrinin aparılması və onların fəaliyyətinə nəzarət müvafiq icra hakimiyyəti orqanı (**Nazirlər Kabineti**) tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.

13.3. Həyat və sağlamlıq əleyhinə ağır və xüsusilə ağır cinayətlər, yaxud şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı, yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri və ya ictimai mənəviyyat əleyhinə cinayətlər törətməyə görə məhkum edilmiş şəxslər ekspert kimi fəaliyyət göstərə bilməz.

13.4. Müvafiq icra hakimiyyəti orqanı (**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi**) ekspertlərin və ekspert təşkilatlarının reyestrində olan aşağıdakı məlumatları rəsmi internet informasiya ehtiyatında yerləşdirir:

13.4.1. ekspert təşkilatının adı və təşkilati-hüquqi forması, ekspert fəaliyyətinin həyata keçirildiyi ünvanlar;

13.4.2. ekspertin adı, atasının adı və soyadı;

13.4.3. ixtisas attestatının nömrəsi və verilmə tarixi;

13.4.4. ekspertin ekspertizasını aparmaq hüququ olan informasiya məhsulunun növü;

13.4.5. verilmiş ixtisas attestatının qüvvədə olma müddətinin dayandırılması və ya onun ləğv edilməsi barədə məlumat.

13.5. Ekspertlərin xidmət haqqı ekspertizanı sifariş edən şəxs tərəfindən ödənilir.

***Maddə 14. İnformasiya məhsulunun ekspertizasının aparılması qaydası***

14.1. Yaş təsnifatının aparılması məqsədi ilə informasiya məhsulunun ekspertizası bu Qanunun 5.3-cü maddəsinə uyğun olaraq informasiya məhsulunun istehsalçısı və ya yayıcısı tərəfindən təşkil olunur.

14.2. Bu Qanunun icrasına nəzarəti həyata keçirən teleradio yayımı sahəsində müvafiq dövlət orqanı (**Milli Televiziya və Radio Şurası**) və müvafiq icra hakimiyyəti orqanları (bundan sonra – müvafiq dövlət orqanları – *mədəni-kütləvi tədbirin keçirilməsi barədə afişalara və digər elanlara, həmçinin belə tədbiri ziyarət etmək hüququ verən biletlərə, dəvətnamələrə və digər sənədlərə münasibətdə* ***Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi,*** *internet informasiya*

*ehtiyatları vasitəsilə yayımlanan kino, televiziya və videofilmlərə (o cümlədən animasiya filmlərinə), kompüter oyunlarına və digər elektron oyunlara münasibətdə* ***Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi,*** *mətbu nəşrlərə və digər informasiya məhsullarına münasibətdə isə* ***Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi*** nəzərdə tutulur) informasiya məhsulunun işarələnmədiyi və yaxud bu Qanunun tələblərini pozmaqla işarələndiyi barədə məlumat əldə etdikdə müstəqil şəkildə həmin informasiya məhsulunun ekspertizasını təşkil edir.

14.3. İnformasiya məhsulunun ekspertizasının aparılma müddəti otuz gündən çox ola bilməz.

14.4. Ekspertizanın nəticələrini özündə əks etdirən ekspert rəyi ekspertizanı sifariş edən şəxsə təqdim edilir. Bu Qanunun 14.2-ci maddəsinə əsasən aparılan ekspertiza üzrə ekspert rəyinin surəti informasiya məhsulunun istehsalçısına və ya yayıcısına göndərilir.

***Maddə 15. Ekspert rəyi***

15.1. Ekspert rəyində aşağıdakılar göstərilir:

15.1.1. informasiya məhsulunun ekspertizasının aparıldığı tarix və yer;

15.1.2. ekspertizanın aparılmasının əsasları;

15.1.3. ekspertizanı aparan ekspert haqqında (soyadı, adı və atasının adı, təhsili, ixtisası, vəzifəsi və elmi dərəcəsi) məlumat;

15.1.4. ekspertizanın aparılması üçün ekspertə təqdim edilmiş tədqiqat obyektləri və materialları;

15.1.5. istifadə edilən metodlar göstərilməklə tədqiqatın məzmunu və nəticələri;

15.1.6. tədqiqatın nəticələrinin qiymətləndirilməsi, qoyulmuş suallar üzrə yekun nəticələrin əsaslandırılması və dürüst ifadə olunması;

15.1.7. informasiya məhsulunda uşaqlar üçün zərərli olan informasiyanın olub-olmaması, informasiya məhsulunun bu Qanunla müəyyən edilmiş yaş kateqoriyasına və işarəyə uyğunluğu barədə nəticələr;

15.1.8. ekspertizanı aparmış ekspertin imzası, həmçinin ekspert təşkilatının möhürü və həmin təşkilatın rəhbərinin imzası.

15.2. Ekspert rəyində aşağıdakı əsas sualları cavablandırılmalıdır:

15.2.1. təqdim edilən informasiya məhsulu hansı yaş kateqoriyasına aiddir;

15.2.2. informasiya məhsulu aid edilmiş yaş kateqoriyasına uyğundurmu;

15.2.3. informasiya məhsulunda bu Qanuna əsasən uşaqlar arasında dövriyyəsi qadağan edilən və ya məhdudlaşdırılan informasiya mövcuddurmu.

15.3. Ekspert rəyi ilə razı olmayan hüquqi və ya fiziki şəxs həmin rəydən müvafiq icra hakimiyyəti orqanının (**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi**) yaratdığı, informasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspert şurasına şikayət verə və rəyi məhkəmə qaydasına mübahisələndirə bilər. Həmin şuranın tərkibinə bu Qanunun 14.2-ci maddəsində nəzərdə tutulan orqanların nümayəndələri də daxil olur. İctimai əsaslarla fəaliyyət göstərən ekspert şurası müvafiq sahədə qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün tədbirlər görür. Şuranın əsasnaməsi müvafiq icra hakimiyyəti orqanı (**Nazirlər Kabineti**) tərəfindən təsdiq edilir.

***Maddə 16. İnformasiya məhsulunun ekspertizasının hüquqi nəticələri***

16.1. İnformasiya məhsulunun istehsalçısı və (və ya) yayıcısı ekspert rəyinə uyğun olaraq aşağıdakı qərarlardan birini qəbul edir:

16.1.1. ekspert rəyinə uyğun olaraq informasiya məhsulunun yaş kateqoriyasına uyğun işarələnməsi və ya əvvəlki yaş kateqoriyası işarəsinin digər yaş kateqoriyası işarəsi ilə əvəz edilməsi;

16.1.2. uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiya məhsulunun uşaqlar tərəfindən əldə olunmasının qarşısını almaq məqsədi ilə bu Qanunda nəzərdə tutulmuş inzibati, texniki proqram və avadanlıq vasitələrinin tətbiqi;

16.1.3. uşaqlar arasında dövriyyəsi qadağan edilən və ya məhdudlaşdırılan informasiya məhsulunun bu Qanunda nəzərdə tutulmuş inzibati, texniki proqram və avadanlıq vasitələri tətbiq etmədən uşaqlar arasında, o cümlədən uşaqlar üçün münasib vaxtda və onların ola biləcəyi ictimai yerlərdə yayılmasının dayandırılması və ya tamamilə dövriyyədən çıxarılması.

16.2. Bu Qanunun 14.2-ci maddəsinə əsasən müvafiq dövlət orqanlarının təşəbbüsü ilə aparılan ekspertiza üzrə ekspert rəyi yol verilmiş pozuntu hallarının təxirə salınmadan aradan qaldırılması barədə həmin orqan tərəfindən pozuntu törədən şəxsə yazılı xəbərdarlıq edilməsi üçün əsasdır.

16.3. İnformasiya məhsulunun istehsalçısı və (və ya) yayıcısı xəbərdarlıqda göstərilən müddətdə pozuntu hallarını aradan qaldırmadıqda müvafiq dövlət orqanları informasiya məhsulunun uşaqlar arasında yayılmasının qarşısının alınması və bu Qanunun tələblərinin pozulmasında təqsirli olan şəxslərin məsuliyyətə cəlb edilməsi üçün müvafiq tədbirlər görür.

# 5-ci fəsil
## YEKUN MÜDDƏALAR

***Maddə 17. Qanunun icrasına nəzarət***

17.1. Bu Qanunun icrasına nəzarət dövlət və ictimai nəzarət formalarında həyata keçirilir.

17.2. Bu Qanunun icrasına dövlət nəzarəti fəaliyyət istiqamətlərinə uyğun olaraq müvafiq dövlət orqanları tərəfindən həyata keçirilir.

17.3. Bu Qanunun icrasına ictimai nəzarət fiziki şəxslər və vətəndaş cəmiyyəti institutları tərəfindən təşkil olunur və həyata keçirilir.

***Maddə 18. Qanunun pozulmasına görə məsuliyyət***

Bu Qanunun tələblərinin pozulması qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

***Maddə 19. Qanunun qüvvəyə minməsi***

Bu Qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 oktyabr 2018-ci il
№ 1310-VQ

## **“Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1310-VQ nömrəli Qanununun tətbiqi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1310-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində:

1.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. həmin Qanunun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunların layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.4. həmin Qanunun 6.4-cü maddəsinə uyğun olaraq, informasiya məhsulunun yaş kateqoriyalarına aid edilməsi qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.5. həmin Qanunun 13.2-ci maddəsinə uyğun olaraq, informasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspertlərə ixtisas attestatının verilməsi, attestatın qüvvədəolma müddətinin dayandırılması və ya ona xitam verilməsi, ekspertlərin və ekspert təşkilatlarının reyestrinin aparılması və onların fəaliyyətinə nəzarət qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.6. həmin Qanunun 15.3-cü maddəsinə uyğun olaraq, informasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspert şurasının əsasnaməsini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.2. həmin Qanunun 13.1-ci maddəsinin birinci, ikinci, üçüncü cümlələrində, 13.4-cü maddəsində, 15.3-cü maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının və 14.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini həyata keçirəcək icra hakimiyyəti orqanları barədə təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikası Qanununun 6.4-cü, 13.2-ci maddələrində və 15.3-cü maddəsinin dördüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirir;

*3.1-1. həmin Qanunun 13.1-ci maddəsinin birinci, ikinci, üçüncü cümlələrində, 13.4-cü maddəsində və 15.3-cü maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi həyata keçirir.*

3.2. həmin Qanunun 14.2-ci maddəsində “teleradio yayımı sahəsində müvafiq dövlət orqanı” dedikdə Milli Televiziya və Radio Şurası, *“müvafiq icra hakimiyyəti orqanları” dedikdə mədəni-kütləvi tədbirin keçirilməsi barədə afişalara və digər elanlara, həmçinin belə tədbiri ziyarət etmək hüququ verən biletlərə, dəvətnamələrə və digər sənədlərə münasibətdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, internet informasiya ehtiyatları vasitəsilə yayımlanan kino, televiziya və videofilmlərə (o cümlədən animasiya filmlərinə), kompüter oyunlarına və digər elektron oyunlara münasibətdə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, mətbu nəşrlərə və digər informasiya məhsullarına münasibətdə isə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi* nəzərdə tutulur.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 20 noyabr 2018-ci il
№ 354

**Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamənin, Komitənin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə" 2006-cı il 9 avqust tarixli 444 nömrəli, "Azərbaycan Respublikasında nəqliyyat, rabitə və yüksək texnologiyalar sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli və "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 6 iyun tarixli 119 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

19 dekabr 2019

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1310-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 noyabr tarixli 354 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 716 nömrəli Fərmanının icrası ilə əlaqədar qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 9 avqust tarixli 444 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 670; 2007, № 3, maddə 233, № 5, maddə 455, № 8, maddə 768, № 11, maddələr 1094, 1105; 2008, № 5, maddə 373, № 11, maddə 970; 2009, № 12, maddə 983; 2010, № 2, maddə 83; 2012, № 5, maddə 420, № 9, maddə 857; 2013, № 10,

maddə 1154, № 11, maddə 1331; 2019, № 7, maddə 1232) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 8.12-4 – 8.12-7-ci bəndlər əlavə edilsin:

"8.12-4. "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq informasiya məhsulunun yaş təsnifatının aparılması üzrə fiziki şəxslərə (ekspertlərə) ixtisas attestatı vermək, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi hallarda attestatın qüvvədəolma müddətini dayandırmaq və ya ona xitam vermək;

8.12-5. informasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspertlərin və onların işlədikləri hüquqi şəxslərin (ekspert təşkilatlarının) reyestrinin aparılmasını təmin etmək, onların fəaliyyətinə nəzarəti həyata keçirmək;

8.12-6. "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci və 14.2-ci maddələrinə uyğun olaraq mətbu nəşrlərin və digər informasiya məhsullarının işarələnmədiyi və yaxud həmin Qanunun tələblərini pozmaqla işarələndiyi barədə məlumat əldə etdikdə, müstəqil şəkildə bu informasiya məhsullarının ekspertizasını təşkil etmək;

8.12-7. informasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspert şurası yaratmaq;".

2. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 41; 2019, № 1, maddə 95, № 6, maddə 1027; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 noyabr tarixli 854 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi

haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 3.0.83-1-ci yarımbənd əlavə edilsin:

"3.0.83-1. "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci və 14.2-ci maddələrinə uyğun olaraq internet informasiya ehtiyatları vasitəsilə yayımlanan kino, televiziya və videofilmlərin (o cümlədən animasiya filmlərinin), kompüter və digər elektron oyunların işarələnmədiyi və yaxud bu Qanunun tələblərini pozmaqla işarələndiyi barədə məlumat əldə etdikdə, müstəqil şəkildə həmin informasiya məhsullarının ekspertizasını Nazirliyin yanında Elektron Təhlükəsizlik Xidməti vasitəsilə təşkil etmək;".

3. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1209, № 10, maddə 2002; 2019; № 5, maddələr 822, 825, № 10, maddə 1588) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 3.1.36-1-ci yarımbənd əlavə edilsin:

"3.1.36-1. "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci və 14.2-ci maddələrinə uyğun olaraq mədəni-kütləvi tədbirin keçirilməsi barədə afişaların və digər elanların, həmçinin belə tədbiri ziyarət etmək hüququ verən biletlərin, dəvətnamələrin və digər sənədlərin işarələnmədiyi və yaxud həmin Qanunun tələblərini pozmaqla işarələndiyi barədə məlumat əldə etdikdə, müstəqil şəkildə bu informasiya məhsullarının ekspertizasını təşkil etmək;".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 19 dekabr 2019-cu il.

## “İnformasiya məhsulunun yaş kateqoriyalarına aid edilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1310-VQ nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 noyabr tarixli 354 nömrəli Fərmanının 1.1.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “İnformasiya məhsulunun yaş kateqoriyalarına aid edilməsi Qaydaları” təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş Naziri**

Bakı şəhəri, 29 iyul 2020-ci il
№ 267

Azərbaycan Respublikası
Nazirlər Kabinetinin
2020-ci il 29 iyul tarixli
267 nömrəli Qərarı ilə
təsdiq edilmişdir.

## İnformasiya məhsulunun yaş kateqoriyalarına aid edilməsi

## QAYDALARI

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 6.4-cü maddəsinə əsasən hazırlanmışdır və informasiya məhsulunun yaş kateqoriyalarına aid edilməsi qaydalarını müəyyən edir.

1.2. Qanunun 5.2-ci maddəsinə əsasən müxtəlif yaş qrupuna aid olan uşaqların normaya uyğun psixi inkişafının xüsusiyyətləri nəzərə alınaraq, informasiya məhsullarının yaş kateqoriyasına uyğun təsnifatı aparılır.

1.3. Qanunun 5.3-cü maddəsinə əsasən informasiya məhsulunun yaşa görə təsnifatlaşdırılması onun istehsalçıları tərəfindən həmin məhsulun Azərbaycan Respublikasının ərazisində dövriyyəsindən əvvəl müstəqil şəkildə və ya Qanunun 4-cü fəslinə uyğun olaraq ekspertin iştirakı ilə həyata keçirilir. İnformasiya məhsulunun yayıcısı həmin məhsulun müstəqil şəkildə və ya ekspertin iştirakı ilə yaşa görə təsnifatlaşdırılmasını təmin etmədən ölkə ərazisində yaya bilməz.

1.4. Qanunun 5.4-cü maddəsinə əsasən informasiya məhsulunun yaşa görə təsnifatlaşdırılması zamanı aşağıdakılar nəzərə alınır:

1.4.1. informasiya məhsulunun mövzusu, janrı, məzmunu və bədii tərtibatı;

1.4.2. informasiyanın müəyyən yaş kateqoriyasına aid uşaqlar tərəfindən mənimsənilməsinin xüsusiyyətləri;

1.4.3. informasiyanın uşaqların sağlamlığına və fiziki, psixi, əxlaqi inkişafına zərərvurma ehtimalı.

1.5. Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurası, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi informasiya məhsulunun işarələnmədiyi və yaxud Qanunun tələblərini pozmaqla işarələndiyi barədə məlumat əldə etdikdə, müstəqil şəkildə həmin informasiya məhsulunun ekspertizasını təşkil edir.

1.6. İnformasiya məhsulu yalnız bir yaş kateqoriyasına aid edilir.

## 2. İnformasiya məhsullarının yaş kateqoriyalarına aid edilməsinə dair tələblər

2.1. "Universal" yaş kateqoriyasına aid informasiya məhsullarına uşaqların sağlamlığına və inkişafına ziyan vurmayan ümumi istifadə üçün nəzərdə tutulmuş informasiya məhsulları aid edilir.

2.2. "6 yaşadək" yaş kateqoriyasına aid informasiya məhsullarına "universal" yaş kateqoriyasına aid edilən informasiya məhsulları, fiziki və (və ya) psixoloji zorakılığın (cinsi zorakılıq istisna olmaqla), qəddarlığın qeyri-naturalist epizodik görüntüsünü və yaxud təsvirini əks etdirən informasiya məhsulları aid edilir, bu şərtlə ki, informasiya məhsulunda xeyirin şərə qalib gəlməsi ideyası yer alsın, həmçinin

zorakılıq və qəddarlıq, insanların istismarı qınanılsın, zorakılığın, qəddarlığın və insan alverinin qurbanına mərhəmət təbliğ olunsun.

2.3. “6 yaşdan” yaş kateqoriyasının informasiya məhsullarına “6 yaşadək” yaş kateqoriyasına aid edilən informasiya məhsulları, habelə aşağıdakı məzmunda olan informasiya məhsulları aid edilir:

2.3.1. insan xəstəliklərinin və onların nəticələrinin insanın mənliyini alçaltmayan formada qısamüddətli və qeyri-naturalist görüntüsü və ya təsviri;

2.3.2. bədbəxt hadisələrin, qəzaların, fəlakətlərin və yaxud qeyri-zorakı ölüm hallarının, onların uşaqlarda təkrarlanan qorxu, təlaş və dəhşət hissləri yarada biləcək nəticələrini nümayiş etdirmədən, qeyri-naturalist görüntüsü və ya təsviri;

2.3.3. təhrikedici və yaxud təlimatlandırıcı xarakter daşımayan, cəmiyyət əleyhinə və hüquqazidd hərəkətlərin və cinayətlərin görüntüsü və ya təsviri, bu şərtlə ki, informasiya məhsulunda bu hərəkətlərə yolvermə əsaslandırılmasın və buna bəraət qazandırılmasın, habelə bu hərəkətləri törədən şəxslərə qarşı mənfi münasibət ifadə edilsin.

2.4. “12 yaşdan” yaş kateqoriyasının informasiya məhsullarına “6 yaşdan” yaş kateqoriyasına aid edilən informasiya məhsulları, habelə aşağıdakı məzmunda olan informasiya məhsulları aid edilir:

2.4.1. insan xəstəliklərinin və onların nəticələrinin insanın mənliyini alçaltmayan formada görüntüsü və ya təsviri;

2.4.2. zorakılığın (cinsi zorakılıq istisna olmaqla) və qəddarlığın, həyatdan məhrumetmə və yaxud sağlamlığa xəsarət yetirmə prosesinin naturalist formada nümayiş etdirilmədən, təhrikedici və ya təlimatlandırıcı xarakter daşımayan epizodik təsviri (görüntüsü), bu şərtlə ki, informasiya məhsulunda zorakılığın, qəddarlığın, insan alverinin qurbanına mərhəmət və (və ya) zorakılığa və qəddarlığa, insanların istismarına mənfi və qınayıcı münasibət ifadə olunsun (vətəndaşların,

cəmiyyətin və dövlətin qanunla qorunan maraqlarının müdafiəsinə yönəldilmiş tədbirlər istisna olmaqla);

2.4.3. zorakılığın, qəddarlığın və insanların istismarının təhrikedici və ya təlimatlandırıcı xarakter daşımayan qeyri-naturalist epizodik təsviri (görüntüsü), bu şərtlə ki, informasiya məhsulunda qurbana mərhəmət və (və ya) qəddarlığa mənfi və qınayıcı münasibət ifadə olunsun;

2.4.4. cəmiyyət əleyhinə və hüquqazidd hərəkətlərin təhrikedici və ya təlimatlandırıcı xarakter daşımayan təsviri (görüntüsü);

2.4.5. alkoqollu və energetik içkilərin istehlakının təhrikedici xarakter daşımayan epizodik təsviri (görüntüsü), bu şərtlə ki, informasiya məhsulunda onların istehlakı qınanılsın;

2.4.6. narkotik vasitələrin və psixotrop maddələrin, alkoqollu və energetik içkilərin, habelə tütün məmulatlarının təhrikedici və ya təlimatlandırıcı xarakter daşımayan epizodik xatırlanmaları (görüntülər nümayiş edilmədən), bu şərtlə ki, informasiya məhsulunda göstərilən maddələrin istehlakına mənfi münasibət ifadə edilsin və (və ya) onların istehlakının təhlükəli olması barədə ismarıclar verilsin;

2.4.7. qadın və kişi arasında cinsi münasibətin ehtiraslandırıcı, təhqiramiz və yaxud erotik xarakterli olmayan qeyri-naturalist epizodik təsviri (görüntüsü).

2.5. “16 yaşdan” yaş kateqoriyasının informasiya məhsullarına “12 yaşdan” yaş kateqoriyasına aid edilən informasiya məhsulları, habelə aşağıdakı məzmunda olan informasiya məhsulları aid edilir:

2.5.1. bədbəxt hadisələrin, qəzaların, fəlakətlərin və yaxud intihar daxil olmaqla ölüm hallarının uşaqlarda təkrarlanan qorxu, təlaş və dəhşət hissləri yarada biləcək nəticələrini naturalist şəkildə nümayiş etdirmədən, görüntüsü və ya təsviri;

2.5.2. zorakılığın (cinsi zorakılıq istisna olmaqla) və qəddarlığın, onların nəticələrinin, həyatdan məhrumetmə prosesinin naturalist formada nümayiş edilmədən, təhrikedici və ya təlimatlandırıcı xarakter daşımayan təsviri (görüntüsü), bu şərtlə ki, informasiya məhsulunda zorakılıq və qəddarlığın, insan alverinin qurbanına mərhəmət və (və ya) zorakılığa və qəddarlığa, insanların istismarına mənfi və qınayıcı münasibət ifadə olunsun (vətəndaşların, cəmiyyətin və dövlətin qanunla qorunan maraqlarının müdafiəsinə yönəldilmiş tədbirlər istisna olmaqla);

2.5.3. zorakılığın və qəddarlığın, insanların istismarının təhrikedici və ya təlimatlandırıcı xarakter daşımayan qeyri-naturalist təsviri (görüntüsü), bu şərtlə ki, informasiya məhsulunda zorakılıq və qəddarlığın, insan alverinin qurbanına mərhəmət və (və ya) qəddarlığa mənfi və qınayıcı münasibət ifadə olunsun;

2.5.4. cəmiyyət əleyhinə hərəkətlərin təhrikedici və ya təlimatlandırıcı xarakter daşımayan təsviri (görüntüləri);

2.5.5. alkoqollu və energetik içkilərin istehlakının təhrikedici xarakter daşımayan təsviri (görüntüsü), bu şərtlə ki, informasiya məhsulunda onların istehlakı qınanılsın;

2.5.6. narkotik vasitələrin və psixotrop maddələrin, alkoqollu və energetik içkilərin, habelə tütün məmulatlarının təhrikedici və ya təlimatlandırıcı xarakter daşımayan xatırlanmaları (nümayiş edilmədən) və yaxud onların istehlakının təhlükəli nəticələrinin nümayişi, bu şərtlə ki, informasiya məhsulunda göstərilən maddələrin istehlakına mənfi münasibət ifadə edilsin və (və ya) onların istehlakının təhlükəli olması barədə ismarıclar verilsin;

2.5.7. qeyri-məişət leksik (jarqon) məzmunlu (əxlaqdankənar leksik (söyüş) məzmunlu söz və ifadələr istisna olmaqla), o cümlədən təhqiramiz xarakterli söz və ifadələrin epizodik istifadəsi;

2.5.8. qadın və kişi arasında cinsi münasibətin pornoqrafik xarakterli olmayan təsviri (görüntüsü).

2.6. "18 yaşdan" yaş kateqoriyasına Qanunun 4.2-ci maddəsinə əsasən uşaqlar arasında dövriyyəsi qadağan olunan informasiya məhsulları aiddir.

## 3. İnformasiya məhsulunun ekspertin iştirakı ilə təsnifatlaşdırılması

3.1. İnformasiya məhsulunun yaşa görə təsnifatı ekspertin iştirakı ilə həyata keçirildikdə, informasiya məhsulunun istehsalçısı və ya yayıcısı Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin rəsmi internet informasiya ehtiyatında yerləşdirilmiş ekspertlərin və ekspert təşkilatlarının reyestrindən müvafiq növ informasiya məhsulunun ekspertizasını aparmaq hüququ olan eksperti seçir.

3.2. İnformasiya məhsulunun ekspertizasının sifarişi Qanunun və Azərbaycan Respublikasının Mülki Məcəlləsinin tələbləri nəzərə alınmaqla, ekspert təşkilatı ilə sifarişçi arasında bağlanılmış müqavilə əsasında həyata keçirilir.

3.3. Qanunun 14.3-cü maddəsinə əsasən informasiya məhsulunun ekspertizasının aparılması müddəti 30 (otuz) gündən çox ola bilməz.

3.4. Ekspertizanın nəticələrini özündə əks etdirən ekspert rəyi Qanunun 15-ci maddəsinin tələblərinə uyğun formada ekspertizanı sifariş edən şəxsə təqdim edilir.

3.5. İnformasiya məhsulunun yaş təsnifatının aparılması üzrə Ekspert Şurası müraciət əsasında, informasiya məhsulunun istehsalçısı və ya yayıcısına, həmçinin ekspert təşkilatına informasiya məhsulunun yaş kateqoriyasına aid edilməsi ilə bağlı tövsiyələr verir.

**İnformasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspertlərə ixtisas attestatının verilməsi, attestatın qüvvədəolma müddətinin dayandırılması və ya ona xitam verilməsi, ekspertlərin və ekspert təşkilatlarının reyestrinin aparılması və onların fəaliyyətinə nəzarət Qaydaları"nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1310-VQ nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 noyabr tarixli 354 nömrəli Fərmanının 1.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "İnformasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspertlərə ixtisas attestatının verilməsi, attestatın qüvvədəolma müddətinin dayandırılması və ya ona xitam verilməsi, ekspertlərin və ekspert təşkilatlarının reyestrinin aparılması və onların fəaliyyətinə nəzarət Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş Naziri**

Bakı şəhəri, 29 iyul 2020-ci il
№ 268

Azərbaycan Respublikası
Nazirlər Kabinetinin
2020-ci il 29 iyul tarixli
268 nömrəli Qərarı ilə
təsdiq edilmişdir.

# İnformasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspertlərə ixtisas attestatının verilməsi, attestatın qüvvədəolma müddətinin dayandırılması və ya ona xitam verilməsi, ekspertlərin və ekspert təşkilatlarının reyestrinin aparılması və onların fəaliyyətinə nəzarət

# QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 13.2-ci maddəsinə əsasən hazırlanmışdır və informasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspertlərə ixtisas attestatının verilməsi, attestatın qüvvədəolma müddətinin dayandırılması və ya ona xitam verilməsi, ekspertlərin və ekspert təşkilatlarının reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətlə bağlı məsələləri tənzimləyir.

1.2. İnformasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspertlərə ixtisas attestatının verilməsi, attestatın qüvvədəolma müddətinin dayandırılması və ya ona xitam verilməsi, ekspertlərin və ekspert təşkilatlarının reyestrinin aparılması və onların fəaliyyətinə nəzarət Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (bundan sonra – Komitə) tərəfindən həyata keçirilir.

## 2. Ekspertlərə ixtisas attestatının verilməsi qaydası

2.1. Qanunun 13.1-ci maddəsinə əsasən şəxsə ixtisas attestatının verilməsi üçün onun işlədiyi hüquqi şəxs (ekspert təşkilatı) bu barədə Komitəyə müraciət edir.

2.2. Qanunun 1.0.19-cu maddəsinə əsasən pedaqogika, psixologiya və ya uşaq psixiatriyası sahəsində ali təhsilə malik olan şəxslər informasiya məhsulunun ekspertizasını aparan ekspert kimi fəaliyyət göstərə bilərlər.

2.3. Qanunun 13.3-cü maddəsinə əsasən həyat və sağlamlıq əleyhinə ağır və xüsusilə ağır cinayətlər, yaxud şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı, yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri və ya ictimai mənəviyyat əleyhinə cinayətlər törətməyə görə məhkum edilmiş şəxslər ekspert kimi fəaliyyət göstərə bilməzlər.

2.4. İxtisas attestatının verilməsi üçün müraciət edən ekspert təşkilatı bu Qaydaların 2.2-ci və 2.3-cü bəndləri ilə müəyyən edilmiş tələblərə cavab verən ən azı 3 (üç) ekspert ştatına malik olmalıdır.

2.5. İxtisas attestatının verilməsi üçün ekspert təşkilatı Komitənin rəsmi internet informasiya ehtiyatında bu Qaydaların 1 nömrəli əlavəsində göstərilən müraciət formasını doldurmaqla və bu Qaydaların 2.6-cı bəndində göstərilən sənədləri əlavə etməklə, elektron qaydada və ya birbaşa müraciət etməlidir. Elektron qaydada müraciət edildikdə, müraciət forması ekspert təşkilatının rəhbərinin və ya nümayəndəsinin elektron imzası ilə təsdiq edilir.

2.6. Müraciətə aşağıdakı sənədlər əlavə edilir:

2.6.1. ekspert təşkilatının vəsatəti;

2.6.2 ekspertizanı keçirmək istəyən şəxsin ərizəsi;

2.6.3. ekspertizanı keçirmək istəyən şəxsin (bundan sonra – namizəd) şəxsiyyətini təsdiq edən sənədin surəti;

2.6.4. ekspert təşkilatı ilə namizəd arasında bağlanılmış əmək müqaviləsinə dair Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzləşdirilmiş elektron informasiya sisteminin "əmək müqaviləsi bildirişi" altsistemindən çıxarış;

2.6.5. müvafiq sahə üzrə ali təhsil haqqında diplomun surəti;

2.6.6. ixtisas üzrə iş stajını təsdiq edən əmək kitabçasının surəti;

2.6.7. məhkumluq barədə arayış;

2.6.8. ekspert təşkilatının VÖEN-i.

2.7. Təqdim edilmiş sənədlərə Komitə tərəfindən bu Qaydaların 2.8-ci bəndi nəzərə alınmaqla 10 (on) iş günü müddətində baxılaraq, namizədin müsabiqəyə buraxılması haqqında qərar qəbul edilir və sifarişli poçt bildirişi ilə və ya elektron qaydada ekspert təşkilatına göndərilir.

2.8. Müraciət bu Qaydaların 2.5-ci və 2.6-cı bəndlərində nəzərdə tutulmuş tələblərə cavab vermədikdə, Komitə müraciətdə həmin tələblərə uyğun düzəlişlərin edilməsi üçün 3 (üç) iş günü müddətində yazılı şəkildə ekspert təşkilatını məlumatlandırır. Ekspert təşkilatı 7 (yeddi) iş günü müddətində tələblərə uyğun olaraq sənədlərin təqdim olunmasını təmin etməlidir. Bu zaman bu Qaydaların 2.7-ci bəndində nəzərdə tutulmuş müddətin axımı dayandırılır.

2.9. Ekspert təşkilatı tərəfindən bu Qaydaların 2.8-ci bəndində göstərilən çatışmazlıqlar aradan qaldırılmadıqda, namizədin müsabiqəyə buraxılmasından imtina olunması barədə qərar qəbul edilir və 3 (üç) iş günü müddətində bu barədə sifarişli poçt bildirişi ilə və ya elektron qaydada ekspert təşkilatına məlumat göndərilir. Bu qərardan inzibati və ya məhkəmə qaydasında şikayət verilə bilər.

2.10. İnformasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspertin bu Qaydaların 2.2-ci bəndində göstərilən sahələr və uşaqların zərərli informasiyadan qorunması barədə Azərbaycan Respublikasının

qanunvericiliyi sahəsində bilik səviyyəsinin müəyyən edilməsi Komitə tərəfindən müsabiqə üsulu ilə həyata keçirilir.

2.11. Müsabiqənin keçirilməsi məqsədilə Komitədə 7 (yeddi) nəfərdən ibarət Müsabiqə Komissiyası (bundan sonra – Komissiya) yaradılır. Komissiyanın tərkibi sədr, sədrin müavini və digər üzvlərdən ibarət olmaqla, Komitə tərəfindən təsdiq edilir.

2.12. Komissiya üzvlərinin səlahiyyət müddəti 3 (üç) ildir. Səlahiyyət müddəti bitmiş üzvlər yenidən Komissiyanın tərkibinə daxil edilə bilərlər.

2.13. Komissiyanın işinə bu Qaydaların 2.2-ci bəndində göstərilən sahələr üzrə mütəxəssislər cəlb edilə bilərlər.

2.14. Komissiyanın iclasının vaxtı və yeri barədə məsul katib tərəfindən Komissiya üzvlərinə əvvəlcədən məlumat verilir.

2.15. Sədr olmadıqda, Komissiyanın iclasına sədrin müavini, o olmadıqda isə Komissiyanın üzvlərindən biri sədrlik edir.

2.16. Komissiya üzvlərindən üçdə iki hissəsi iştirak etdikdə səlahiyyətli sayılır. Baxılan məsələ üzrə qərar açıq səsvermə və sadə səs çoxluğu ilə qəbul edilir. Sədr sonuncu səs verir və səslər bərabər olduqda, onun səsi həlledicidir.

2.17. Müsabiqə test imtahanından və müsahibədən ibarətdir.

2.18. Test imtahanının keçirildiyi vaxt və yer barədə məlumat 3 (üç) gün əvvəl Komitənin rəsmi internet informasiya ehtiyatında yerləşdirilir və namizədlərə sifarişli poçt bildirişi və ya elektron qaydada göndərilir.

2.19. İmtahan suallarının hazırlanmasında əvvəlcədən elan olunmuş müsabiqə proqramında göstərilən ədəbiyyat və normativ hüquqi aktlardan istifadə olunur. Müsabiqə proqramı Komitənin rəsmi internet informasiya ehtiyatında yerləşdirilir.

2.20. İmtahan sualları toplusunun hazırlanmasına Komitənin əməkdaşları və pedaqogika, psixologiya və ya uşaq psixiatriyası sahələri üzrə mütəxəssislər cəlb olunurlar.

2.21. Suallar toplusu Komissiyanın qapalı iclasında baxılıb təsdiq edilir və zərfə qoyulub möhürlənməklə xüsusi yerdə saxlanılır. Komissiya, həmçinin imtahan suallarına düzgün cavabların siyahısını hazırlayır və onun konfidensiallığını təmin edir.

2.22. Test imtahanı 30 (otuz) sualdan ibarət olur. Test imtahanı 1 (bir) saat müddətində fasilə verilmədən keçirilir.

2.23. Test imtahanında hər düz cavab 1 (bir) balla qiymətləndirilir. Suala düzgün olmayan cavab və ya sualın cavabsız saxlanması "0" bala bərabərdir.

2.24. Test imtahanında 25 (iyirmi beş) və daha çox bal toplamış namizədlər müsabiqədə iştiraklarını davam etdirirlər. Keçid balını toplaya bilməyən şəxslərin müsabiqədə iştirakı dayandırılır.

2.25. Komissiyada test imtahanının nəticələrinə baxıldıqdan sonra müsahibənin keçirilməsi barədə qərar verilir.

2.26. Test imtahanının nəticələri həmin gün Komitənin rəsmi internet informasiya ehtiyatında yerləşdirilir və test imtahanında iştirak etmiş namizədlərə sifarişli poçt bildirişi ilə və ya elektron qaydada göndərilir.

2.27. Test imtahanından narazı qalan namizəd bu barədə 2 (iki) iş günü müddətində Komitəyə şikayət vermək hüququna malikdir.

2.28. Test imtahanının nəticələrinə dair qərar qəbul edildiyi tarixdən 3 (üç) iş günü müddətində müsahibənin keçirildiyi vaxt və yer barədə məlumat Komitənin rəsmi internet informasiya ehtiyatında yerləşdirilir və test imtahanını müvəffəqiyyətlə keçmiş namizədlərə sifarişli poçt bildirişi ilə və ya elektron qaydada göndərilir.

2.29. Komissiyanın hər bir üzvü müsahibədə iştirak edən şəxsi bilik səviyyəsi (namizədin müsabiqə proqramı üzrə bilikləri) və peşə hazırlığı (namizədin nəzəri və qanunvericilik biliklərini tətbiqetmə bacarığı) meyarlarına əsasən qiymətləndirir.

2.30. Namizədlərlə müsahibə fərdi qaydada aparılır və 20 dəqiqəyədək davam edir.

2.31. Bu Qaydaların 2.29-cu bəndində nəzərdə tutulan meyarlar üçün ən yüksək bal 5 (beş), ən aşağı bal isə 2 (iki) baldır. Komissiya üzvlərinin verdiyi ballar toplanır və müsahibədə iştirak edən Komissiya üzvlərinin sayına bölünərək, orta bal müəyyən edilir.

2.32. Müsahibənin nəticəsi üzrə 4 (dörd) və daha çox bal toplamış namizəd müsahibədən müvəffəqiyyətlə keçmiş hesab olunur.

2.33. Müsabiqə başa çatdıqdan sonra müsbət nəticə əldə etmiş şəxslərin siyahısı Komitənin rəsmi internet informasiya ehtiyatında yerləşdirilir və bu barədə məlumat həmin şəxslərə sifarişli poçt bildirişi ilə və ya elektron qaydada göndərilir.

2.34. Komissiya 1 (bir) iş günü müddətində müsabiqənin nəticələrinə görə ixtisas attestatının verilməsi və ya verilməsindən imtina barədə qərar qəbul edir.

2.35. İxtisas attestatının verilməsi barədə qərar onun qəbul edildiyi tarixdən 3 (üç) iş günü müddətində müsbət nəticə əldə etmiş şəxslərə və onların işlədiyi ekspert təşkilatının rəhbərinə və ya nümayəndəsinə təqdim edilir və yaxud sifarişli poçt bildirişi vasitəsilə göndərilir. Qərara ixtisas attestatı əlavə olunur.

2.36. İxtisas attestatı Komitənin rəhbəri tərəfindən imzalanır və möhürlə təsdiq edilir, ekspertlərin, ekspert təşkilatlarının reyestrində qeydiyyata alınır.

2.37. İxtisas attestatında bu Qaydaların 2 nömrəli əlavəsinə uyğun olaraq aşağıdakılar göstərilir:

2.37.1. ixtisas attestatını verən qurumun adı;

2.37.2. ixtisas attestatı verilən ekspertin adı, soyadı və atasının adı;

2.37.3. ekspertin işlədiyi ekspert təşkilatının adı;

2.37.4. ekspertin ekspertizasını aparmaq hüququ olduğu informasiya məhsulunun növü;

2.37.5. ixtisas attestatının nömrəsi, verilmə tarixi və qüvvədəolma müddəti.

2.38. İxtisas attestatının verilməsindən imtina barədə qərar qəbul edildiyi halda, Komitə həmin qərarın qəbul edildiyi tarixdən 1 (bir) iş günü müddətində, imtinanın səbəbləri göstərilməklə namizədə və onun işlədiyi ekspert təşkilatına bu barədə elektron və ya sifarişli poçt bildirişi vasitəsilə məlumat verir.

2.39. Ekspert təşkilatı ixtisas attestatının verilməsindən imtina barədə qərardan inzibati və ya məhkəmə qaydasında şikayət verə bilər.

2.40. İxtisas attestatı verilmiş ekspertin attestatda qeyd edilmiş məlumatlarında hər hansı dəyişiklik baş verdiyi halda, o, bu barədə məlumat verməli və ixtisas attestatı dəyişdirilməlidir.

2.41. İxtisas attestatının dəyişdirilməsi üçün ekspert təşkilatı Komitəyə ixtisas attestatının dəyişdirilməsi barədə ərizəni, qüvvədə olan ixtisas attestatının əslini və bu Qaydaların 2.41-ci bəndində göstərilən dəyişiklikləri təsdiq edən sənədi təqdim etməlidir.

## 3. İxtisas attestatının qüvvədəolma müddətinin dayandırılması və ona xitam verilməsi qaydası

3.1. Komitə aşağıda göstərilən əsaslardan biri olduqda, ixtisas attestatının qüvvədəolma müddətinin dayandırılması barədə qərar qəbul edir:

3.1.1. ixtisas attestatının qüvvədəolma müddətinin dayandırılması barədə ekspert təşkilatı tərəfindən ərizə təqdim edildikdə;

3.1.2. Komitə tərəfindən ekspertin (ekspert təşkilatının) fəaliyyətinə nəzarət həyata keçirilərkən, yaş təsnifatının aparılması məqsədilə informasiya məhsulunun ekspertizasında pozuntular aşkar edildikdə.

3.2. Bu Qaydaların 3.1.2-ci yarımbəndində nəzərdə tutulmuş hal olduqda, ixtisas attestatının qüvvədəolma müddəti 30 (otuz) gün müddətinə dayandırılır.

3.3. Pozuntular aşkar edildiyinə görə ixtisas attestatının qüvvədəolma müddəti dayandırılmış ekspert işlədiyi ekspert təşkilatı vasitəsilə bu Qaydaların 3.2-ci bəndi ilə müəyyən edilmiş müddətdə Komitəyə yol verilmiş pozuntuların səbəbləri, habelə gələcəkdə bu pozuntuların qarşısının alınması məqsədilə həyata keçiriləcək tədbirlər barədə məlumat təqdim etməlidir.

3.4. Bu Qaydaların 3.3-cü bəndində nəzərdə tutulmuş məlumat 3.2-ci bəndi ilə müəyyən edilmiş müddətdə təqdim edilmədikdə, Komitə ixtisas attestatının qüvvədəolma müddətinə xitam verilməsi barədə qərar qəbul edir.

3.5.Qüvvədəolma müddəti bu Qaydaların 3.1.1-ci yarımbəndində nəzərdə tutulmuş əsasa görə dayandırılmış ixtisas attestatının qüvvədəolma müddətinin bərpası ekspert təşkilatının ərizəsi əsasında bu Qaydalarla müəyyən edilmiş ixtisas attestatının verilməsi qaydasında həyata keçirilir.

3.6. İxtisas attestatının qüvvədəolma müddətinə xitam verilməsi barədə qərar aşağıdakı hallarda qəbul edilir:

3.6.1. ixtisas attestatının qüvvədəolma müddətinə xitam verilməsi barədə ekspert təşkilatı tərəfindən ərizə təqdim edildikdə;

3.6.2. ixtisas attestatı verilmiş fiziki şəxs öldükdə;

3.6.3. Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən ekspert təşkilatı ləğv edildikdə;

3.6.4. bu Qaydaların 3.1.2-ci yarımbəndində göstərilən hal il ərzində iki dəfə və daha çox təkrar edildikdə;

3.6.5. bu Qaydaların 3.3-cü bəndində nəzərdə tutulmuş tələblər yerinə yetirilmədikdə;

3.6.6. ekspert fəaliyyətinin həyata keçirilməsi zamanı kommersiya və qanunla mühafizə olunan digər məlumatların məxfiliyi təmin edilmədikdə və yaxud onlardan digər məqsədlər üçün istifadə edildikdə;

3.6.7. ərizədə və ona əlavə olunmuş sənədlərdə yanlış və ya təhrif olunmuş faktlar aşkar edildikdə.

3.7.İxtisas attestatının qüvvədəolma müddətinin dayandırılması, bərpa olunması və ya ona xitam verilməsi haqqında qərar qəbul edildiyi tarixdən 2 (iki) iş günü müddətində ərizəçiyə təqdim edilir və ya sifarişli poçt bildirişi vasitəsilə göndərilir.

3.8.İxtisas attestatının qüvvədəolma müddətinin dayandırılması, bərpa olunması və ona xitam verilməsi haqqında məlumatlar ekspertlərin və ekspert təşkilatlarının reyestrinə daxil edilir.

## 4. Ekspertlərin və ekspert təşkilatlarının reyestrinin aparılması və onların fəaliyyətinə nəzarət qaydası

4.1. Komitə tərəfindən ekspertlərin və ekspert təşkilatlarının reyestrinə aşağıdakı məlumatlar daxil edilir:

4.1.1. ekspert təşkilatının adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, ekspert fəaliyyətinin həyata keçirildiyi ünvanlar, əlaqə vasitələri;

4.1.2. ekspertin adı, soyadı və atasının adı;

4.1.3. ixtisas attestatının verilməsi barədə qərarın nömrəsi və tarixi;

4.1.4. ixtisas attestatının nömrəsi və verilmə tarixi;

4.1.5. ekspertin ekspertizasını aparmaq hüququ olduğu informasiya məhsulunun növü;

4.1.6. ixtisas attestatının qüvvədəolma müddəti;

4.1.7. ixtisas attestatının qüvvədəolma müddətinin dayandırılmasının əsası, tarixi və bərpa edilməsinin tarixi;

4.1.8. ixtisas attestatının qüvvədəolma müddətinə xitam verilməsinin əsası və tarixi;

4.1.9. ekspert tərəfindən aparılmış ekspertizalar haqqında məlumatlar.

4.2. Komitə verilmiş ixtisas attestatları barədə məlumatları və bu məlumatlara əlavə və dəyişiklikləri bu Qaydalara əsasən müvafiq qərarlar qəbul edildiyi və ya bu Qaydaların 2.41-ci bəndinə əsasən müvafiq məlumatlar təqdim edildiyi tarixdən 5 (beş) iş günü müddətinədək reyestrə daxil etməlidir.

4.3. Komitə ekspertlərin və ekspert təşkilatlarının reyestrindən aşağıdakı məlumatları rəsmi internet informasiya ehtiyatında yerləşdirir:

4.3.1. ekspert təşkilatının adı, təşkilati-hüquqi forması, ekspert fəaliyyətinin həyata keçirildiyi ünvanlar;

4.3.2. ekspertin adı, soyadı və atasının adı;

4.3.3. ixtisas attestatının nömrəsi və verilmə tarixi;

4.3.4. ekspertin ekspertizasını aparmaq hüququ olduğu informasiya məhsulunun növü;

4.3.5. verilmiş ixtisas attestatının qüvvədəolma müddətinin dayandırılması və ya ona xitam verilməsi barədə məlumat.

4.4. Reyestrdə olan məlumatların açıqlanması "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

4.5. İxtisas attestatı verilmiş ekspertlər (ekspert təşkilatları) uşaqların zərərli informasiyadan qorunması barədə Azərbaycan Respublikasının qanunvericiliyinə riayət etməyə borcludurlar. Onların fəaliyyətinə nəzarət bu Qaydaların 3-cü hissəsi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

“İnformasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspertlərə ixtisas attestatının verilməsi, attestatın qüvvədəolma müddətinin dayandırılması və ya ona xitam verilməsi, ekspertlərin və ekspert təşkilatlarının reyestrinin aparılması və onların fəaliyyətinə nəzarət Qaydaları”na

**1 nömrəli əlavə**

**İxtisas attestatının verilməsinə dair ərizə forması**

1. Ekspert təşkilatının adı ______________________________
2. Hüquqi ünvanı_____________________________________
3. Əlaqə vasitələri ___________________________________
4. Ekspertlərin sayı __________________________________
5. Ekspertlərin ali təhsili haqqında diplomun rekvizitləri ______
6. Ali təhsil haqqında diplom xarici dövlətin təhsil müəssisəsi tərəfindən verildikdə və nostrifikasiya tələb edildiyi halda, nostrifikasiya şəhadətnaməsinin nömrəsi _____________________________
7. Ekspertin ekspertizasını aparmaq istədiyi informasiya məhsulunun növü ________________________________________
8. “İnformasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspertlərə ixtisas attestatının verilməsi, attestatın qüvvədəolma müddətinin dayandırılması və ya ona xitam verilməsi, ekspertlərin və ekspert təşkilatlarının reyestrinin aparılması və onların fəaliyyətinə nəzarət Qaydaları”nın 2.6-cı bəndinə əsasən ərizəyə (müraciətə) əlavə edilmiş sənədlərin siyahısı____________________________________

Ekspert təşkilatının rəhbərinin və ya nümayəndəsinin imzası

______________________

Ekspert təşkilatının
möhürü ______________________________

M.Y.

“İnformasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspertlərə ixtisas attestatının verilməsi, attestatın qüvvədəolma müddətinin dayandırılması və ya ona xitam verilməsi, ekspertlərin və ekspert təşkilatlarının reyestrinin aparılması və onların fəaliyyətinə nəzarət Qaydaları”na

**2 nömrəli əlavə**

**İxtisas attestatının forması**

**Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi**

İnformasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspertin ________ № - li

**İXTİSAS ATTESTATI**

____________________________________________________________

(informasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspertin adı, soyadı, atasının adı və ünvanı)

Ekspert təşkilatının adı______________________________________

(ekspert təşkilatının təşkilati-hüquqi forması və fəaliyyətinin həyata keçirildiyi ünvan)

____________________________________________________________

Ekspertin ekspertizasını aparmaq hüququ olduğu informasiya məhsulunun növü __________________________________________

İxtisas attestatının verilməsi tarixi ___________________________

Qüvvədəolma tarixi: müddətsiz

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri

İmza _______________

M.Y.

**“İnformasiya məhsulunun yaş təsnifatının aparılması üzrə Ekspert Şurasının Əsasnaməsi”nin təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI
NAZİRLƏR KABİNETİNİN
QƏRARI

“Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1310-VQ nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 noyabr tarixli 354 nömrəli Fərmanının 1.1.6-cı yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “İnformasiya məhsulunun yaş təsnifatının aparılması üzrə Ekspert Şurasının Əsasnaməsi” təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş Naziri**

Bakı şəhəri, 29 iyul 2020-ci il
№ 269

Azərbaycan Respublikası
Nazirlər Kabinetinin
2020-ci il 29 iyul tarixli
269 nömrəli Qərarı ilə
təsdiq edilmişdir.

**İnformasiya məhsulunun yaş təsnifatının aparılması üzrə Ekspert Şurasının**

# ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 15.3-cü maddəsinə əsasən hazırlanmışdır və informasiya məhsulunun yaş təsnifatının aparılması üzrə Ekspert Şurasının (bundan sonra – Ekspert Şurası) fəaliyyətini tənzimləyir.

1.2. Qanunun 15.3-cü maddəsinə əsasən Ekspert Şurası informasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspert rəyindən razı olmayan hüquqi və ya fiziki şəxslərin (ekspertizanı sifariş edən şəxslərin) şikayətlərinə baxır və bu sahədə qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün tədbirlər görür.

1.3. Ekspert Şurası Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (bundan sonra – Komitə) tərəfindən yaradılır, tərkibinə 3 (üç) müstəqil ekspert və Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurasının, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin, Azərbaycan Respublikası Nəqliyyat,

Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin və Komitənin nümayəndələri daxildir.

1.4. Ekspert Şurasının tərkibinə müstəqil ekspert qismində Qanunun 1.0.19-cu maddəsinə əsasən pedaqogika, psixologiya və ya uşaq psixiatriyası sahəsində ali təhsilə malik olan şəxslər daxil edilirlər. Qanunun 13.3-cü maddəsinə əsasən həyat və sağlamlıq əleyhinə ağır və xüsusilə ağır cinayətlər, yaxud şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı, yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri və ya ictimai mənəviyyat əleyhinə cinayətlər törətməyə görə məhkum edilmiş şəxslər Ekspert Şurasının tərkibinə müstəqil ekspert qismində daxil edilə bilməzlər.

1.5. Ekspert Şurası öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununu, digər qanunları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

1.6. Ekspert Şurası öz fəaliyyətini qanunçuluq, kollegiallıq və qərəzsizlik prinsipləri əsasında qurur.

1.7. Ekspert Şurası ictimai əsaslarla fəaliyyət göstərir.

## 2. Ekspert Şurasının vəzifələri

2.1. Ekspert Şurasının vəzifələri aşağıdakılardan ibarətdir:

2.1.1. Ekspert Şurasına daxil olan şikayətlər üzrə hərtərəfli, tam və obyektiv araşdırma aparmaq və müvafiq qərar qəbul etmək;

2.1.2. Ekspert Şurasının qəbul etdiyi qərarın icrasına nəzarət etmək;

2.1.3. Ekspert Şurasında baxılan şikayətlərin uçotunu aparmaq, onları təhlil etmək, ümumiləşdirmək və Komitənin rəhbərinə arayışlar təqdim etmək;

2.1.4. yaş təsnifatının aparılması məqsədilə informasiya məhsulunun ekspertizasının aparılmasında pozuntulara yol vermiş ekspertlər barədə Komitəyə məlumat vermək;

2.1.5. fəaliyyəti zamanı uşaqların mənafelərini üstün tutmaq, onların hüquq və azadlıqlarını təmin etmək;

2.1.6. informasiya məhsulunun yaş təsnifatının aparılması üzrə qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün tədbirlər görmək;

2.1.7. Ekspert Şurasının qəbul etdiyi qərarlarla bağlı izahat vermək;

2.1.8. Ekspert Şurasında baxılan məsələlərə qərəzsiz yanaşmaq;

2.1.9. icra intizamına ciddi əməl etmək.

## 3. Ekspert Şurasının hüquqları

3.1. Ekspert Şurasının hüquqları aşağıdakılardan ibarətdir:

3.1.1. şikayət vermiş şəxslərin iştirakı ilə araşdırma aparmaq, onlardan izahat almaq;

3.1.2. Ekspert Şurasına daxil olan şikayətlərin araşdırılması zamanı aşkar olunmuş nöqsanların və pozuntuların aradan qaldırılması ilə bağlı səlahiyyətlərinə uyğun olaraq Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurasının, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin, Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin və Komitənin vəzifəli şəxsləri qarşısında məsələ qaldırmaq və nəticəsi barədə məlumat almaq;

3.1.3. təhlillər və ümumiləşdirmələr aparmaq, şikayətlərin araşdırılması zamanı aşkar edilmiş nöqsanların, çatışmazlıqların aradan qaldırılması ilə bağlı təkliflər vermək;

3.1.4. Ekspert Şurasının qərarlarının yerinə yetirilməsinin monitorinqini aparmaq və buna nəzarət etmək, habelə nöqsanların aradan qaldırılması üzrə tədbirlər görmək;

3.1.5. Ekspert Şurasının fəaliyyətinə mütəxəssisləri cəlb etmək;

3.1.6. müraciət olunduqda, informasiya məhsulunun istehsalçısına və ya yayıcısına, ekspert təşkilatına informasiya məhsulunun yaş kateqoriyasına aid edilməsi ilə bağlı tövsiyələr vermək;

3.1.7. informasiya məhsulunun yaş təsnifatının aparılması üzrə qabaqcıl təcrübəni öyrənmək;

3.1.8. Ekspert Şurasına daxil olan şikayətlərin ətraflı araşdırılması məqsədilə ekspertə sorğular göndərmək.

## 4. Ekspert Şurasının fəaliyyətinin təşkili

4.1. Ekspert Şurasının tərkibi Komitə tərəfindən təsdiq edilir.

4.2. Ekspert Şurasının tərkibi sədrdən, üzvlərdən və katibdən ibarətdir.

4.3. Komitənin rəhbər vəzifəli şəxsi Ekspert Şurasına sədrlik edir.

4.4. Ekspert Şurasının fəaliyyətinin təşkili və vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar sədr aşağıdakıları həyata keçirir:

4.4.1. Ekspert Şurasının katibini təyin edir;

4.4.2. Ekspert Şurasının iclaslarının gündəliyinə çıxarılan məsələləri müəyyənləşdirir;

4.4.3. Ekspert Şurasının iclaslarına sədrlik edir;

4.4.4. Ekspert Şurasının qərarlarını imzalayır;

4.4.5. Ekspert Şurasını təmsil edir;

4.4.6. Ekspert Şurasının qərarlarının icrası ilə əlaqədar müvafiq orqanlara müraciət edir.

4.5. Ekspert Şurasının üzvləri aşağıdakı hüquqlara malikdir:

4.5.1. iclasda səs vermək hüququ ilə iştirak etmək;

4.5.2. iclasın keçirilməsi və iclasda baxılan məsələlər barədə əvvəlcədən məlumatlandırılmaq;

4.5.3. Ekspert Şurasına daxil olan şikayətlərlə əlaqədar lazımi məlumatlar əldə etmək;

4.5.4. iclasda çıxışlar etmək, müzakirələrdə iştirak etmək;

4.5.5. Ekspert Şurasına daxil olan şikayətlərlə əlaqədar hərtərəfli, tam və obyektiv araşdırma aparmaq;

4.5.6. Ekspert Şurasına daxil olan şikayətlərlə əlaqədar münasibət bildirmək, rəy və təkliflər vermək;

4.5.7. Ekspert Şurasının iclasının protokolu ilə tanış olmaq və protokola qeydlər təklif etmək;

4.5.8. Ekspert Şurasının qərarı ilə razılaşmadıqda, bu barədə özünün əsaslandırılmış xüsusi rəyini yazılı şəkildə təqdim etmək;

4.5.9. Ekspert Şurasının səlahiyyətlərinə aid məsələlər barədə təkliflər vermək.

4.6. Ekspert Şurasının katibi:

4.6.1. Ekspert Şurasına daxil olan müraciətlərlə əlaqədar təşkilati tədbirləri həyata keçirir;

4.6.2. Ekspert Şurasına daxil olan şikayətləri bu Əsasnamənin tələblərinə uyğunluğu baxımından yoxlayır, onlar müvafiq tələblərə uyğun olduğu halda iş üzrə bütün zəruri sənədləri (materialları) Ekspert Şurasının sədrinə və rəy verilməsi üçün Şuranın digər üzvlərinə göndərir;

4.6.3. bu Əsasnamənin 4.6.2-ci yarımbəndinə əsasən təqdim edilmiş rəyləri ümumiləşdirir və Ekspert Şurasının sədri ilə razılaşdırmaqla, Ekspert Şurasının iclaslarını təşkil edir;

4.6.4. Ekspert Şurasının iclaslarının keçirilməsinin vaxtı barədə Ekspert Şurasının üzvlərinə iclasa ən azı 3 (üç) iş günü qalmış məlumat verir;

4.6.5. Ekspert Şurasının iclaslarının protokolunu tərtib edir;

4.6.6. Ekspert Şurasının qərarlarının aidiyyəti üzrə göndərilməsini təmin edir;

4.6.7. Ekspert Şurasında baxılan şikayətlərin uçotunu aparır, onları təhlil edir, ümumiləşdirir və nəticəsi barədə Ekspert Şurasının sədrinə illik arayışlar (hesabatlar) hazırlayır;

4.6.8. Ekspert Şurasının sədrinin göstərişlərini icra edir;

4.6.9. Ekspert Şurasının fəaliyyəti ilə bağlı sənədlərin saxlanılmasını təmin edir.

4.7. Bu Əsasnamənin 4.6.2-ci yarımbəndində nəzərdə tutulan rəylər 5 (beş) iş günündən gec olmayaraq təqdim edilməlidir. Təqdim edilən rəylər əsaslandırılmalı, aydın və birmənalı şəkildə ifadə olunmalıdır.

## 5. Şikayətlərə dair tələblər

5.1. Şikayət yazılı (o cümlədən, elektron) formada tərtib edilir. Şikayətdə aşağıdakı məlumatlar göstərilir:

5.1.1. ünvanlandığı qurumun – Ekspert Şurasının adı;

5.1.2. şikayətçinin adı, soyadı, atasının adı, yaşayış yeri və ya olduğu yer (hüquqi şəxsin adı və hüquqi ünvanı);

5.1.3. şikayət edilən ekspert rəyini hazırlamış ekspertin soyadı, adı, atasının adı, işlədiyi ekspert təşkilatının adı, ünvanı;

5.1.4. şikayət edilən ekspert rəyinin tarixi;

5.1.5. şikayət edilən ekspert rəyinin surəti;

5.1.6. şikayətin məzmunu və şikayətçinin tələbi (tələbləri);

5.1.7. şikayətə əlavə edilmiş sənədlərin siyahısı.

5.2. Şikayət müraciət edən tərəfindən imzalanır.

5.3. Hüquqi şəxs tərəfindən təqdim olunan şikayətlərə həmin hüquqi şəxsin möhürü vurulmalıdır.

5.4. Şikayət bu Əsasnamənin 5.1-ci, 5.2-ci və 5.3-cü bəndlərində nəzərdə tutulmuş tələblərə cavab vermədikdə, şikayət daxil olduqdan sonra 5 (beş) iş günü müddətində yol verilmiş nöqsanlar şikayətçinin nəzərinə çatdırılmaqla, işçi qaydada aradan qaldırılır. Həmin nöqsanlar vaxtında aradan qaldırılmadıqda və ya şikayət üzrə məhkəmənin qərarı olduqda, şikayət baxılmamış saxlanılır və bu Əsasnamənin 5.5-ci bəndinə uyğun olaraq müvafiq tədbir görülür.

5.5. Ekspert Şurasında mahiyyəti üzrə baxılmış şikayət üzrə şikayətçiyə qəbul olunmuş qərar, mahiyyəti üzrə baxılmamış müraciət üzrə isə müraciət etmiş şəxsə əsaslandırılmış cavab göndərilir.

5.6. Ekspert Şurasına şikayət ekspert rəyinin təqdim edildiyi tarixdən 30 (otuz) gün müddətində verilə bilər.

## 6. Ekspert Şurasının iclasının keçirilməsi qaydası

6.1. Ekspert Şurasının iclası onun üzvlərinin azı üçdə ikisi iştirak etdikdə səlahiyyətlidir.

6.2. Ekspert Şurasının iclası şikayət baxılmaq üçün hazır olduqda, habelə Ekspert Şurası sədrinin və ya üzvlərinin təşəbbüsü ilə keçirilir.

6.3. Ekspert Şurasının hər bir iclasının reqlamenti müzakirə olunacaq müraciətlərdən asılı olaraq Ekspert Şurasının sədri tərəfindən müəyyənləşdirilir.

6.4. Şikayətçilərin Ekspert Şurasının iclasında iştirak etmək hüququ vardır. İclasa müvafiq sahələr üzrə mütəxəssislər dəvət edilə bilər.

6.5. Ekspert Şurasının iclasında qərarlar açıq səsvermə yolu ilə iclasda iştirak edən üzvlərin sadə səs çoxluğuna əsasən qəbul edilir. Səslər bərabər olduqda, Ekspert Şurası sədrinin səsi həlledici sayılır. Şuranın sədri axırıncı səs verir.

6.6. Ekspert Şurasının iclasında şikayətlə müraciət etmiş şəxslərin səlahiyyətli nümayəndəsi iştirak etdikdə, nümayəndənin səlahiyyətini təsdiq edən sənədin əsli (və ya surəti) katibə təqdim edilməlidir.

6.7. Ekspert Şurasının iclasları protokolla rəsmiləşdirilir və Ekspert Şurasının sədri və katibi tərəfindən imzalanır.

6.8. Ekspert Şurasının iclasının protokolunda aşağıdakılar göstərilməlidir:

6.8.1. iclasın keçirildiyi tarix və yer;

6.8.2. iclasa sədrlik və iclasda iştirak edən Ekspert Şurası üzvlərinin, katibin, şikayətlə müraciət etmiş şəxslərin və (və ya) onların səlahiyyətli nümayəndələrinin adları, soyadları və atalarının adları;

6.8.3. gündəliyə daxil edilmiş şikayətin predmeti, qısa məzmunu və əsasları;

6.8.4. Ekspert Şurasının iclasında çıxış edən şəxslərin çıxışları;

6.8.5. Ekspert Şurasının daxil olmuş şikayətlə bağlı gəldiyi nəticələr, aidiyyəti hüquqi aktlara istinad;

6.8.6. Ekspert Şurasının qərarı.

## 7. Ekspert Şurasının qərarları

7.1. Ekspert Şurası informasiya məhsulunun yaş təsnifatının aparılmasına dair ekspert rəyindən razı olmayan hüquqi və ya fiziki şəxslərin şikayətləri üzrə aşağıdakı qərarlardan birini qəbul edir:

7.1.1. ekspert rəyi dəyişdirilmədən saxlanılsın;

7.1.2. ekspert rəyi ləğv edilərək, Ekspert Şurası tərəfindən şikayətin predmeti olan informasiya məhsulunun aid olduğu yaş kateqoriyası müəyyən edilsin;

7.1.3. ekspert rəyində dəyişikliklər edilsin.

7.2. Ekspert Şurasının qərarı əsaslandırılmış şəkildə tərtib olunmalı və işin bütün hallarını özündə əks etdirməlidir.

7.3. Ekspert Şurasının qərarının 1 (bir) nüsxəsi şikayətçiyə göndərilir.

7.4. Ekspert Şurasının qərarı qəbul edildiyi andan qüvvəyə minmiş hesab edilir.

7.5. Ekspert Şurasının qərarından məhkəmə qaydasında şikayət verilə bilər.

# Uşaqların zərərli informasiyadan qorunması haqqında qanunvericilik aktlarından çıxarışlar

***Maddə 388-2. Uşaqların zərərli informasiyadan qorunması haqqında qanunvericiliyin pozulması***

388-2.0. Uşaqların zərərli informasiyadan qorunması haqqında qanunvericiliyin pozulmasına, yəni:

388-2.0.1. uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiya məhsullarının uşaqların ola biləcəyi yerlərdə inzibati, texniki proqram və avadanlıq vasitələri tətbiq edilmədən yayılmasına;

388-2.0.2. informasiya məhsulunun "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada yaşa görə təsnifatlaşdırılmasını təmin etmədən, o cümlədən həmin Qanunla müəyyən edilmiş hallar istisna olmaqla informasiya məhsulunu müvafiq yaş kateqoriyasına uyğun işarələmədən ölkə ərazisində yayılmasına;

388-2.0.3. informasiya məhsulunun yayımçıları tərəfindən televiziya yayımı, kino və video xidmətlərinin göstərilməsi zamanı hər bir informasiya məhsulunun nümayişindən əvvəl xüsusi kadrda (səhifədə) informasiya məhsulunun yaş kateqoriyasına uyğun işarəsinin və yaş məhdudiyyəti barədə, o cümlədən internet informasiya ehtiyatlarında informasiya məhsulunun uşaqlar arasında yayılmasını məhdudlaşdıran xəbərdarlığa dair mətnin yerləşdirilməməsinə;

388-2.0.4. "18+" yaş kateqoriyasına aid informasiya məhsulu teleradio vasitəsilə yayımlanarkən bu informasiya məhsulunun yaş kateqoriyası haqqında xəbərdarlığı televiziya yayımı zamanı işarə, radio yayımı zamanı isə səsləndirmə ilə həyata keçirilməməsinə;

388-2.0.5. uşaqlar üçün nəzərdə tutulan informasiya məhsullarında (telekommunikasiya şəbəkələri, o cümlədən internet şəbəkəsi

vasitəsilə yayılan informasiya məhsulları və sellülar (mobil) rabitə şəbəkəsi də daxil olmaqla) onların zərərli informasiya məhsulunun hazırlanmasına cəlb edilməsi barədə elanların yerləşdirilməsinə;

388-2.0.6. məhdud şəxslər dairəsində yayılması nəzərdə tutulan mətbu nəşrin birinci və sonuncu səhifəsində, çap məhsulunun və digər poliqrafik məhsulun üz və arxa qabığında uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiyanın əks olunmasına və ya həmin informasiya məhsulunun qablaşdırmadan yayılmasına;

388-2.0.7. uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiya məhsulunun uşaqlar üçün nəzərdə tutulmuş təhsil müəssisələrində, tibb, sanatoriya-kurort, bədən tərbiyəsi və idman, mədəniyyət, istirahət və sağlamlaşdırma müəssisələrində və ya həmin müəssisələrin sərhədindən yüz əlli metrdən az olan məsafədə yayılmasına görə - fiziki şəxslər beş yüz manatdan min manatadək məbləğdə, vəzifəli şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər üç min manatdan dörd min manatadək məbləğdə cərimə edilir.

Azərbaycan Respublikası
Prezidentinin
2017-ci il 3 may tarixli
1361 nömrəli Fərmanı ilə
təsdiq edilmişdir

**Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin**

**S İ Y A H I S I**

**Məcəllənin 388-2.0.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:**

31-5.1. inzibati xətanı aşkar etmiş Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi adından – bu Siyahının 7.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

31-5.3. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından – bu Siyahının 1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

31-5.4. inzibati xətanı aşkar etmiş yerli icra hakimiyyəti orqanları adından – bu Siyahının 12-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.

**31-6. Məcəllənin 388-2.0.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:**

31-6.1. **teleradio yayımı vasitəsilə yayımlanan informasiya məhsuluna münasibətdə** Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurası adından – bu Siyahının 29.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

31-6.2. **kino və video xidmətlər vasitəsilə yayımlanan informasiya məhsuluna, həmçinin mədəni-kütləvi tədbirin keçirilməsi barədə afişalara və digər elanlara, habelə belə tədbiri ziyarət etmək hüququ verən biletlərə, dəvətnamələrə və digər sənədlərə münasibətdə** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi adından – Mədəniyyət naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri, onun müavini, Aparatın rəhbəri, şöbə müdiri;

31-6.3. **internet informasiya ehtiyatları vasitəsilə yayımlanan kino, televiziya və videofilmlərə (o cümlədən animasiya filmlərinə), kompüter oyunlarına və digər elektron oyunlara münasibətdə** Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi adından – bu Siyahının 31-5.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

31-6.4. **mətbu nəşrlərə münasibətdə:**

31-6.4.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi adından – bu Siyahının 7.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

31-6.4.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Mətbuat Şurası adından – bu Siyahının 31.2.2-ci yarımbəndində nəzərdə tutulan vəzifəli şəxslər;

31-6.5. **digər informasiya məhsullarına münasibətdə** Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi adından – bu Siyahının 7.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.

**31-7. Məcəllənin 388-2.0.3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:**

31-7.1. **televiziya yayımına münasibətdə** Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurası adından – bu Siyahının 29.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

31-7.2. **kino və video xidmətlərinə münasibətdə** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi adından – bu Siyahının 31-6.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

31-7.3. **internet informasiya ehtiyatlarında yayıma münasibətdə** Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi adından – bu Siyahının 31-5.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.

31-8. Məcəllənin 388-2.0.4-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurası adından – bu Siyahının 29.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.

**31-9. Məcəllənin 388-2.0.5-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:**

31-9.1. **teleradio yayımı vasitəsilə yayımlanan informasiya məhsuluna münasibətdə** Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurası adından – bu Siyahının 29.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

31-9.2. **mədəni-kütləvi tədbirin keçirilməsi barədə afişalara və digər elanlara, həmçinin belə tədbiri ziyarət etmək hüququ verən biletlərə, dəvətnamələrə və digər sənədlərə münasibətdə** inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi adından – bu Siyahının 31-6.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

31-9.3. **internet informasiya ehtiyatları vasitəsilə yayılan informasiya məhsulları və sellülar (mobil) rabitə şəbəkəsinə münasibətdə** Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi adından – bu Siyahının 31-5.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

31-9.4. **mətbu nəşrlərə münasibətdə:**

31-9.4.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi adından – bu Siyahının 7.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

31-9.4.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Mətbuat Şurası adından – bu Siyahının 31.2.2-ci yarımbəndində nəzərdə tutulan vəzifəli şəxslər;

31-9.5. **digər informasiya məhsullarına münasibətdə** Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi adından – bu Siyahının 7.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.

31-10. **Məcəllənin 388-2.0.6-cı maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:**

31-10.1. inzibati xətanı aşkar etmiş **Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi adından** – bu Siyahının 7.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

31-10.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Mətbuat Şurası adından – bu Siyahının 31.2.2-ci yarımbəndində nəzərdə tutulan vəzifəli şəxslər;

31-10.3. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından – bu Siyahının 1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.

**31-11. Məcəllənin 388-2.0.7-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:**

31-11.1. **təhsil müəssisələrinə münasibətdə** inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Təhsil Nazirliyi adından – bu Siyahının 6-cı hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

31-11.2. **tibb müəssisələrinə münasibətdə** inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi adından – bu Siyahının 3-cü hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

31-11.3. **mədəniyyət müəssisələrinə münasibətdə** inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi adından – bu Siyahının 31-6.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

31-11.4. **bədən tərbiyəsi və idman müəssisələrinə münasibətdə** inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi adından – bu Siyahının 34.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

31-11.5. inzibati xətanı aşkar etmiş Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi adından – bu Siyahının 7.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

31-11.6. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından – bu Siyahının 1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

31-11.7. inzibati xətanı aşkar etmiş yerli icra hakimiyyəti orqanları adından – bu Siyahının 12-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.

## Uşaq hüquqları Haqqında
## Azərbaycan Respublikasının Qanunu

***Maddə 15. Uşağın məlumat azadlığı***

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hər bir uşağın əqli və fiziki inkişafı üçün zəruri olan istənilən mə lumatı axtarmaq, əldə etmək, ötürmək və yaymaq hüququ vardır.

*Uşaqların zərərli informasiyadan qorunması "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.*

## Gənclər siyasəti haqqında
## Azərbaycan Respublikasının Qanunu

***Maddə 5. Gənclərin mənəvi-əxlaqi tərbiyəsi və mədəni həyatda iştirakı***

*5.7.3. "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq zorakılığın, qəd-darlığın, narkotik vasitələrin və psixotrop maddələrin, alkoqollu və energetik içkilərin, habelə tütün məmulatlarının, cəmiyyət əleyhinə davranışın, pornoqrafik xarakterli informasiyanın təbliğinə.*

*5.8. Müvafiq icra hakimiyyəti orqanları 18 yaşınadək gənclərin mənəvi-əxlaqi tərbiyəsini, onların həyatına, fiziki və psixi sağlamlığına təhlükə yaradan zərərli informasiyalardan qorunmasını təmin etmək məqsədi ilə "təhlükəsiz internet" mexanizminin yaradılmasını təmin edirlər.*

## Təhsil haqqında
## Azərbaycan Respublikasının Qanunu

***Maddə 11. Təhsilin məzmununa və təşkilinə dair ümumi tələblər***

11.1. Təhsilin məzmununa və təşkilinə dair ümumi tələblər aşağıdakılardır:

11.4. Dərslikdə, dərs vəsaitində, tədris materialında, məktəb gündəliyində, dəftərdə, albomda, yetkinlik yaşına çatmayanlar üçün nəzərdə tutulmuş kitabda reklam yerləşdirilə bilməz.

11.5. Yetkinlik yaşına çatmayanlara mənəvi və fiziki baxımdan zərərli təsir göstərə bilən reklam məktəbəqədər və ümumi təhsil müəssisələrinin ərazilərindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məsafədən yaxın yerləşdirilə bilməz. İdman mərc oyunlarının, lotereyaların açıq məkanda reklamı uşaq və təhsil müəssisələrindən azı 100 metr kənarda olan reklam daşıyıcılarında yerləşdirilir.

11.6. Uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiya məhsulunun uşaqlar üçün nəzərdə tutulmuş təhsil müəssisələrində və ya həmin müəssisələrin sərhədindən yüz əlli metrdən az olan məsafədə yayılmasına yol verilmir.

11.7. Təhsil müəssisələrində uşaqların təhsil və tərbiyəsi üçün nəzərdə tutulan informasiya məhsullarının qiymətləndirilməsi "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla Azərbaycan Respublikasının təhsil haqqında qanunvericiliyinə uyğun aparılır.

**Məktəbəqədər təhsil haqqında**
**Azərbaycan Respublikasının Qanunu**

***Maddə 4. Məktəbəqədər təhsil sahəsində dövlətin vəzifələri***

4.0.13. dövlət məktəbəqədər təhsil müəssisələrini *məzmunu və bədii tərtibatı altı yaşadək uşaqlar üçün nəzərdə tutulan informasiya məhsullarının məzmununa və bədii tərtibatına uyğun olan* tədris vəsaitləri, bədii və metodik ədəbiyyatlarla təmin etmək

***Maddə 17. Məktəbəqədər təhsil sahəsində uşaqların hüquqları***

17.1. Məktəbəqədər təhsil sahəsində uşaqların hüquqları Azərbaycan Respublikasının Konstitusiyasına, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, bu Qanuna*, "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa* və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq müəyyən edilir.

17.2. Məktəbəqədər təhsil sahəsində uşaqlar aşağıdakı hüquqlara malikdirlər:

17.2.1. həyat və sağlamlıq üçün təhlükəsiz şəraitdə, mənəvi-psixoloji cəhətdən sağlam pedaqoji mühitdə dövlət təhsil standartlarına uyğun keyfiyyətli təhsil almaq;

17.2.2. şəxsiyyətin alçaldılmasına, mənəvi və psixoloji duruma və sağlamlığa zərər vuran hərəkətlərin bütün formalarından, fiziki və psixoloji zorakılıq hallarından müdafiə olunmaq;

**17.2.3. uşaqların sağlamlığına, mənəvi və psixoloji durumuna zərər vuracaq istənilən informasiyadan və təbliğatdan müdafiə olunmaq;**

17.2.4. ödənişsiz tibbi xidmətdən istifadə etmək, sağlamlıq vəziyyətinə görə tibbi müayinə xidmətlərindən yararlanmaq~~, çatışmazlıqların (nitq qüsurları, eşitmə və görmə qabiliyyətlərinin zəifliyi) korreksiya edilməsi üçün psixoloji-tibbi-pedaqoji yardım almaq~~;

*17.2.4-1."Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;*

17.2.5. müəyyən olunmuş normativlərə uyğun, keyfiyyətli qida ilə təmin edilmək;

17.2.6. asudə vaxtının və istirahətinin səmərəli təşkili, meyil və maraqlarının reallaşması və yaradıcılıq imkanlarının inkişafı üçün münasib şəraitlə təmin olunmaq.

**17.3. Məktəbəqədər təhsil müəssisələrində uşaqların təlimi üçün nəzərdə tutulan informasiya məhsullarının məzmunu və bədii tərtibatı altı yaşadək uşaqlar üçün nəzərdə tutulan informasiya məhsullarının məzmununa və bədii tərtibatına uyğun olmalıdır.**

## İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında Azərbaycan Respublikasının Qanunu

### *Maddə 13-2. İnternet informasiya ehtiyatında informasiyanın yayılması*

13-2.1. İnternet informasiya ehtiyatının sahibi həmin informasiya ehtiyatında yerləşdirilən informasiyanın tərkibi və onun yerləşdirilməsi qaydasının müəyyən edilməsində müstəqildir. İnternet

informasiya ehtiyatının və onun domen adının sahibi həmin informasiya ehtiyatının qanunauyğun fəaliyyətini təmin etməlidir və buna görə şəxsən məsuliyyət daşıyır.

13-2.2. İnternet informasiya ehtiyatının və onun domen adının sahibi hüquqi şəxsdirsə adı, təşkilati-hüquqi forması, elektron poçt ünvanı, fiziki şəxsdirsə adı, soyadı və atasının adı və elektron poçt ünvanı həmin saytda aydın oxuna bilən yerdə və formada yerləşdirməlidir.

13-2.3. İnternet informasiya ehtiyatının və onun domen adının sahibi həmin informasiya ehtiyatında aşağıdakı yayılması qadağan edilən informasiyanın yerləşdirilməsinə yol verməməlidir:

13-2.3.1. terrorçuluğun təbliği və maliyyələşdirilməsi, terrorçuluğun həyata keçirilməsinin üsul və vasitələri, terrorçuluq məqsədi ilə təlim təşkil etmə və ya keçirmə barədə məlumatlar, habelə terrorçuluğa açıq çağırışlar;

13-2.3.2. zorakılığın və dini ekstremizmin təbliğinə dair məlumatlar, milli, irqi və ya dini nifrət və düşmənçiliyin salınmasına, dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə, ərazi bütövlüyünün parçalanmasına, hakimiyyətin zorla ələ keçirilməsinə və ya saxlanmasına, kütləvi iğtişaşların təşkil edilməsinə yönələn açıq çağırışlar;

13-2.3.3. dövlət sirri təşkil edən məlumatlar;

13-2.3.4. odlu silahın, onun komplekt hissələrinin, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların hazırlanma qaydası və ya üsulları barədə məlumatlar;

13-2.3.5. narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının hazırlanma və ya istifadə üsulları və qaydası, onların qanunsuz əldə edilməsi yerləri, habelə tərkibində narkotik maddələr olan bitkilərin kultivasiya yerləri və ya üsulları barədə məlumatlar;

13-2.3.6. pornoqrafiyaya, o cümlədən uşaq pornoqrafiyasına aid məlumatlar;

13-2.3.7. qumar və digər qanunsuz mərc oyunlarının təşkilinə və həmin oyunlarda iştiraka təhrik edən məlumatlar;

13-2.3.8. intiharı problemlərin həlli üsulu qismində təbliğ edən, intihara bəraət qazandıran, onu əsaslandıran və ya törədilməsinə təhrik edən, intiharın törədilməsi üsullarını izah edən və ya qrup şəklində bir neçə şəxsin intihar etməsini təşkil etmək məqsədi ilə yayılan məlumatlar;

**13-2.3.8-1. “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq yaş kateqoriyasına uyğun işarələnməmiş kino, televiziya və videofilmlər, o cümlədən animasiya filmləri, kompüter və digər elektron oyunlar (“Universal” yaş kateqoriyasına aid olanlar istisna olmaqla);**

13-2.3.9. təhqir və ya böhtan xarakteri daşıyan, habelə şəxsi həyatın toxunulmazlığını pozan məlumatlar;

13-2.3.10. əqli mülkiyyət hüquqlarını pozan məlumatlar;

13-2.3.11. Azərbaycan Respublikasının qanunları ilə yayılması qadağan edilən digər informasiya.

13-2.4. İnternet informasiya ehtiyatının və onun domen adının sahibi həmin informasiya ehtiyatında yayılması qadağan edilən informasiyanın olduğunu aşkar etdikdə və ya bu barədə ona müraciət daxil olduqda, belə informasiyanın informasiya ehtiyatından götürülməsini təmin edir.

13-2.5. Host provayder öz informasiya sistemlərində yerləşdirilmiş internet informasiya ehtiyatlarında yayılması qadağan edilən informasiya aşkar etdikdə və ya ona bu barədə məlumat daxil olduqda,

dərhal onun informasiya ehtiyatının sahibi tərəfindən götürülməsi üçün tədbirlər görür.

**13-2.6. internet informasiya ehtiyatlarında informasiya məhsulunun uşaqlar arasında yayılmasını məhdudlaşdıran xəbərdarlıq mətni əks olunmalıdır.**

## Kütləvi informasiya vasitələri haqqında Azərbaycan Respublikasının Qanunu

### *Maddə 10. Kütləvi informasiya azadlığından sui-istifadənin yolverilməzliyi*

Azərbaycan Respublikasının qanunvericiliyi ilə qorunan sirləri, *habelə yayılması qadağan edilən digər informasiyanı* yaymaq, mövcud konstitusiyalı dövlət quruluşunu zorakılıqla çevirmək, dövlətin bütövlüyünə qəsd etmək, müharibəni, zorakılığı və qəddarlığı, milli, irqi, sosial ədaləti, yaxud dözülməzliyi təbliğ etmək, mötəbər mənbə adı altında vətəndaşların şərəf və ləyaqətini alçaldan şayiələr, yalan və qərəzli yazılar, pornoqrafik materiallar çap etdirmək, böhtan atmaq, yaxud digər qanunazidd əməllər törətmək məqsədi ilə kütləvi informasiya vasitələrindən istifadə olunmasına yol verilmir.

***Uşaqlar arasında dövriyyəsi qadağan edilən və ya məhdudlaşdırılan informasiyanın istehsalçısı və yayıcısı "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə riayət etməyə borcludur.***

### *Maddə 60. Kütləvi informasiya azadlığından və jurnalist hüquqlarından sui-istifadəyə görə məsuliyyət*

Kütləvi informasiya vasitəsinin redaksiyası (məsul redaktoru) və jurnalistlər (müəlliflər):

1) açıqlanması qanunla qadağan edilən məlumatları açıqladıqda;

2) baş redaktor (redaktor) mətbu nəşrdə çap olunan materialların bu Qanunun tələblərinə uyğun hazırlanmasına nəzarət etmədikdə;

3) bu Qanunda göstərilmiş hallardan başqa informasiyanı onun mənbəyini göstərmədən yaydıqda;

4) vətəndaşların şəxsi həyatına qəsd etdikdə;

**5) pornoqrafik materialları dərc etdikdə və ya efirə verdikdə, *o cümlədən "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tələblərini pozduqda* Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə mülki, inzibati, cinayət və digər məsuliyyət daşıyırlar.**

Əməliyyat-axtarış tədbirləri keçirilən hallar istisna olmaqla, şəxsin onun xəbəri olmadan və ya etirazına baxmayaraq kütləvi informasiya vasitələrinin nümayəndələri və başqa şəxslər tərəfindən izlənilməsi, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qalması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

**Telekommunikasiya haqqında**
**Azərbaycan Respublikasının Qanunu**

***Maddə 33 . Operatorların və provayderlərin vəzifələri***

33.1. Operatorlar aşağıdakı vəzifələri daşıyırlar:

33.1.1. telekommunikasiya sahəsində müəyyən olunmuş normativ hüquqi aktlara uyğun fəaliyyət göstərmək;

33.1.2. abunəçi ilə bağlanan müqaviləyə əsasən üzərinə düşən vəzifələri yerinə yetirmək;

33.1.3. istehlakçıların hüquqlarını pozmamaq;

*33.1.3-1. abunəçinin müraciəti əsasında uşaqların zərərli informasiyadan qorunması üçün internet informasiya ehtiyatlarından təhlükəsiz istifadə imkanlarını "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla təmin etmək;*

*33.1.3-2. rabitə vasitələrinin satışı və istifadəsi zamanı xidmət göstərilən fiziki və hüquqi şəxslərlə bağlanılan müqavilələrdə və abunəçilərə dair məlumat bazalarında nəzərdə tutulması vacib olan məlumatları daxil etmək;*

*33.1.3-3. telefon nömrələrinin (sabit (məftilli), mobil) operatorların şəbəkəsində aktivləşdirilməsini ərizəçiyə dair məlumatların vahid məlumat bazasına onlayn rejimdə elektron formada daxil edildikdən sonra təmin etmək;*

33.1.4. qarşılıqlı arabağlantı müqavilələrini bağlamaq;

33.1.5. telekommunikasiya xidmətlərini müəyyən edilmiş standart, norma və qaydalara uyğun keyfiyyətlə göstərmək;

33.1.6. trafikin normativ hüquqi aktlara uyğun istiqamətləndirilməsinə əməl etmək;

33.1.7. abunəçilər və istifadəçilər tərəfindən ixtisaslaşdırılmış təcili yardım xidmətlərinin çağırılması üçün telekommunikasiya şəbəkələrindən ödənişsiz istifadəni təmin etmək;

33.1.8. telekommunikasiya xidmətinin göstərilməsi məhdudlaşdırıldığı halda da ixtisaslaşdırılmış təcili yardım xidmətləri ilə əlaqəni mümkün həddədək təmin etmək;

33.1.9. müvafiq icra hakimiyyəti orqanının səlahiyyətli nümayəndəsinə telekommunikasiya vasitələri və qurğularının istifadə olunduğu yerdə yoxlanılmasına qanunvericiliklə müəyyən edilmiş qaydada şərait yaratmaq;

*33.1.9-1. bu Qanunun 13-1.2-ci maddəsində nəzərdə tutulmuş qaydada uçota durmaq, habelə uçot məlumatlarında baş vermiş dəyişiklik barədə dəyişikliyin baş verdiyi vaxtdan 10 gün müddətində məlumat vermək;*

*33.1.9-2. müvafiq icra hakimiyyəti orqanının, habelə məhkəmələrin və ya hüquq mühafizə orqanlarının sorğularına 3 iş günündən gec olmayaraq cavab vermək və tələb olunan məlumatları təqdim etmək (bu müddətdə həmin informasiyanın aktuallığını itirməsi ilə əlaqədar sorğunun təcili olması barədə sorğu verənin qeydi olduqda, sorğuya dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavab vermək);*

*33.1.9-3. operator və ya provayderin telekommunikasiya şəbəkəsinə qoşulmaqla təşkil edilən qanunsuz beynəlxalq telekommunikasiya xidmətlərinin qarşısının alınması üçün texniki vasitələrdən, avadanlıqlardan və ya proqram təminatından istifadə etməklə tədbirlər görmək;*

*33.1.9-4. yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin dövlət qeydiyyatı zamanı mobil nömrənin identifikasiyası məqsədilə*

*müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) sorğusuna real vaxt rejimində cavab vermək*

*33.1.9-5. "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərə riayət etmək;*

33.1.10. qanunvericiliklə müəyyən edilmiş digər vəzifələr.

33.2. Bu Qanunun 33.1-ci maddəsində göstərilmiş vəzifələr, bu Qanunun *33.1.3-2-ci, 33.1.3-3-cü, 33.1.4-cü və 33.1.9-4-cü maddələri* istisna olmaqla, provayderlərə də şamil edilir.

*33.3. Host provayder və internet provayderlər internet informasiya ehtiyatlarında yayılması qadağan edilən informasiyanın yerləşdirilməsinin qarşısının alınması üçün "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş tədbirləri həyata keçirməlidirlər.*

***Maddə 34 . Abunəçilərin hüquq və vəzifələri***

34.1. Abunəçilər aşağıdakı hüquqlara malikdirlər:

34.1.1. operatoru, provayderi sərbəst seçmək;

34.1.2. keyfiyyətli telekommunikasiya xidmətlərini tələb etmək;

***34.1.2-1. uşaqların zərərli informasiyadan qorunması üçün texniki proqram və avadanlıq vasitələrinin tətbiqi ilə müvafiq tədbirlər görülməsini tələb etmək;***

34.1.3. operatorun, provayderin əməllərindən qanunvericiliklə müəyyən edilmiş qaydada şikayət vermək;

34.1.4. qanunvericiliklə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

34.2. Abunəçilər aşağıdakı vəzifələri daşıyırlar:

34.2.1. qanunvericiliyə uyğun müəyyən edilmiş telekommunikasiya xidmətlərindən istifadə qaydalarına riayət etmək;

34.2.2. telekommunikasiya şəbəkəsinə operator, provayder ilə bağlanmış müqavilələrə, qanunvericiliklə müəyyən edilmiş standartlara və digər tələblərə uyğun son avadanlıq qoşmaq;

34.2.3. telekommunikasiya şəbəkələrinin istismarını, bütövlüyünü, qarşılıqlı bağlantısını, informasiya mühafizəsini, radioelektron vasitələrinin elektromaqnit uyğunluğunu təhlükə altına qoyan, habelə digər subyektlər üçün telekommunikasiya xidmətlərinin göstərilməsini çətinləşdirən, yaxud qeyri-mümkün edən əməllərə yol verməmək;

34.2.4. operator, provayder ilə bağlanmış müqavilələrin şərtlərinə əməl etmək, o cümlədən istifadə etdikləri telekommunikasiya xidmətləri haqlarını vaxtlı-vaxtında ödəmək;

34.2.5. son avadanlığın istifadə olunduğu yerdə yoxlanılması üçün müvafiq icra hakimiyyəti orqanının səlahiyyətli nümayəndəsinə, qanunvericiliklə müəyyən edilmiş qaydada şərait yaratmaq;

34.2.6. qanunvericiliklə müəyyən edilmiş digər vəzifələr.

## Televiziya və Radio Yayımı Haqqında Azərbaycan Respublikasının Qanunu

***Maddə 11. Teleradio yayımı sahəsində dövlətin əsas funksiyaları və vəzifələri***

11.1. İnformasiya məkanının vahid inkişaf konsepsiyasına uyğun olaraq dövlət:

11.1.1. teleradio fəaliyyətini tənzimləmək üçün qanunvericilik bazası yaradır;

11.1.2. məqsədli dövlət proqramları hazırlayır və həyata keçirir;

11.1.3. teleradio yayımı zamanı bu Qanuna, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına və xüsusi razılığın (lisenziyanın) qayda və şərtlərinə əməl olunmasına nəzarəti həyata keçirir;

11.1.4. teleradio yayım kanallarını (tezlikləri) istifadəyə verir.

11.2. Azərbaycan Respublikasında teleradio yayımını tənzimləyən dövlət orqanı Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq yaradılır.

11.3. Teleradio yayımı sahəsində müvafiq dövlət orqanı dövlət büdcəsindən maliyyələşdirilir və öz fəaliyyətində müstəqildir.

11.4. Müvafiq dövlət orqanı bu Qanunla müəyyənləşdirilmiş funksiyaları həyata keçirmək məqsədi ilə:

11.4.1. öz aparatını və struktur bölmələrini yaradır;

11.4.2. teleradio yayımçılarının reyestrini aparır;

11.4.3. teleradio yayımının texniki və keyfiyyət standartlarını və normalarını müəyyənləşdirir;

11.4.4. bu Qanunun tələbləri, xüsusi razılığın (lisenziyanın) qayda və şərtləri pozulduqda inzibati tənbeh tədbirləri tətbiq edir və (və ya) məhkəmə qarşısında iddia qaldırır;

11.4.5. teleradio yayımına xüsusi razılıq (lisenziya) vermək məqsədi ilə müsabiqə elan edir, müsabiqənin qayda və şərtlərini hazırlayır və müsabiqəni keçirir.

11.4.6. zəruri hallarda (ictimai əhəmiyyət kəsb edən tədbirlərin, seçkilərin, mühüm əhəmiyyətli idman yarışlarının keçirilməsi zamanı və s.) xarici televiziya və radio kanallarının Azərbaycan ərazisində peyk vasitəsilə yayımı üçün icazə verir.

11.5. Teleradio yayımı sahəsində müvafiq dövlət orqanı:

11.5.1. teleradio verilişlərinin ötürülməsi üçün istifadə olunan texniki yayım vasitələrinin qanunvericilikdə və xüsusi razılıqda (lisenziyada) müəyyən olunmuş qaydada və şərtlərə uyğun istismarına;

11.5.2. yayım kanalları (tezlikləri) resurslarından səmərəli istifadə olunmasına;

**11.5.3. ~~uşaqların və~~ yetkinlik yaşına çatmayanların fiziki, əqli və mənəvi inkişafına ziyan vura bilən proqramların *"Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan vaxtda göstərilməməsinə (xüsusi dekoderlər vasitəsilə ödənişli əsasda həyata keçirilən informasiya məhsullarının telekanallarda yayımı istisna olmaqla) və həmin Qanunun teleradio yayımı sahəsində digər tələblərinin icrasına*;**

11.5.4. terrorizmin, zorakılığın, qəddarlığın, milli, irqi və dini ayrı-seçkiliyin təbliğinə yol verilməməsinə;

11.5.5. reklamın bu Qanunla müəyyənləşdirilmiş qaydada yayımlanmasına;

11.5.6. Azərbaycan Respublikası qanunvericiliyinin digər tələblərinin yerinə yetirilməsinə nəzarət edir.

11.6. İctimai yayımla bağlı konkret məsələlərin araşdırılması və həll edilməsi üçün ictimai yayımçının rəsmi müraciəti əsasında teleradio yayımı sahəsində müvafiq dövlət orqanına səlahiyyət verilə bilər, bu şərtlə ki, ictimai yayımın yaradıcılıq və redaksiya müstəqilliyi məhdudlaşdırılmasın.

***Maddə 33. Yetkinlik yaşına çatmayanların qorunması***

Uşaqların yaşına uyğun informasiya əldə etmək hüququnun həyata keçirilməsi ilə əlaqədar olaraq onların zərərli informasiyadan qorunması "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada həyata keçirilir.

***Maddə 35. Reklamın yayılması***

35.13. Televiziya reklamlarında:

35.13.1. insanların ləyaqətinə, dini və siyasi əqidəsinə;

35.13.2. sağlamlığına və təhlükəsizliyinə;

35.13.3. ətraf mühitin qorunmasına ziyan vuran hərəkətlərin təqdim olunması qadağandır.

35.14. Televiziya reklamları ~~uşaqların və~~ yetkinlik yaşına çatmayanların fiziki, əqli və mənəvi inkişafına zərərli təsir göstərməməlidir. Bunun üçün həmin reklamlarda *"Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla aşağıdakılara* əməl olunmalıdır:

35.14.1. ~~uşaqlara və~~ yetkinlik yaşına çatmayanlara ünvanlanan yaxud onların iştirakı ilə yayımlanan reklamlarda *onların* maraqlarına ciddi zərbə vuran elementlərdən istifadə olunmamalı;

35.14.2. tutarlı səbəblər olmadan, ~~uşaqlar və~~ yetkinlik yaşına çatmayanlar qorxulu vəziyyətlərdə göstərilməməlidir.

***Maddə 40. Yayımçıların hüquq və vəzifələri***

40.1. Mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq teleradio yayımçıları:

40.1.1. proqramlar (verilişlər) hazırlamaq, yayımlamaq, onların audio və videoyazılarını çoxaltmaq, satmaq və ya icarəyə vermək;

40.1.2. ödəniş haqqını müəyyən etmək;

40.1.3. reklam fəaliyyəti ilə məşğul olmaq;

40.1.4. öz verilişlərinin proqramını dərc etmək və ya bu hüququ üçüncü şəxsə vermək;

40.1.5. nizamnamə vəzifələrini yerinə yetirmək üçün zəruri və qanunla qadağan edilməyən digər fəaliyyətlə məşğul olmaq hüququna malikdirlər.

40.2. Teleradio yayımçılarının vəzifələri aşağıdakılardır:

40.2.1. proqramların (verilişlərin) mövzu rəngarəngliyini təmin etmək;

40.2.1-1. Azərbaycan Respublikasının Dövlət Himnini hər səhər Azərbaycan Respublikasının televiziya və radio yayımlarının əvvəlində "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsinə uyğun olaraq səsləndirmək;

40.2.2. pornoqrafik materialları yaymamaq;

***40.2.2-1. tütün məmulatlarını və tütün istifadəsi prosesini nümayiş etdirməmək, həmçinin tütün məmulatlarının və tütün istifadəsi prosesinin nümayiş etdirildiyi əsərləri, tamaşaları, proqramları efirdə, kabel yayımı vasitəsilə açıq yayımlamamaq;***

***40.2.2-2. informasiya məhsulunun "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada yaşa görə təsnifatlaşdırılmasını təmin etmədən, o cümlədən həmin Qanunla müəyyən edilmiş hallar istisna olmaqla informasiya məhsulunu müvafiq yaş kateqoriyasına uyğun işarələmədən ölkə ərazisində yayımlamamaq;***

40.2.3. başqa teleradio yayımçılarının verilişlərinin yayımlanmasına və qəbuluna maneçilik törətməmək;

## İctimai televiziya və radio yayımı haqqında Azərbaycan Respublikasının Qanunu

*Maddə 7. İctimai yayımçının vəzifələri*

7.1.10. tütün məmulatlarının və tütün istifadəsi prosesinin nümayiş etdirilməməsi, həmçinin tütün məmulatlarının və tütün istifadəsi prosesinin nümayiş etdirildiyi əsərlərin, tamaşaların, proqramların efirdə, kabel yayımı vasitəsilə açıq yayımlanmaması; [7]

**7.1.11. uşaqlar arasında dövriyyəsi qadağan edilən və ya məhdudlaşdırılan informasiyanın yayılması ilə bağlı "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərə riayət edilməsi.**

## Kinomatoqrafiya haqqında Azərbaycan Respublikasının Qanunu

*Maddə 7. Filmlərin dövlət reyestri*

Kino və videofilmlərin qanunsuz nümayişinin, pornoqrafiya və ya zorakılıq təbliğ edən filmlərin yayımının qarşısının alınması~~,~~ ~~tamaşaçı auditoriyasının yaş kateqoriyalarının müəyyənləşdiril-məsi~~ məqsədilə Azərbaycan Respublikası ərazisində kütləvi nümayiş (kinozal, videozal, video yayımı məntəqələri, efir və kabel televiziyası) üçün nəzərdə tutulmuş bütün filmlər müvafiq icra hakimiyyəti orqanı tərəfindən qeydə alınır və filmlərin dövlət reyestrinə daxil edilir.

***Kino və videofilmlərin yaşa görə təsnifatlaşdırılması "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq həyata keçirilir.***

**Filmlərin yayımı və nümayişi *bu Qanunun, "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası Qanununun və kinematoqrafiya sahəsində digər normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla* müvafiq icra hakimiyyəti orqanının (mədəniyyət nazirliyi) müəyyən etdiyi qaydada həyata keçirilir.**

## Teatr və teatr fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanun

***Maddə 11. Teatrların vəzifələri***

11.1. Teatrların vəzifələri aşağıdakılardır:

11.1.1. işçilərin əmək şəraitini və əməyinin mühafizəsini, habelə sosial müdafiəsini qanunvericiliklə nəzərdə tutulmuş qaydada təmin etmək;

11.1.2. tamaşaçıların həyat və sağlamlığının mühafizəsini, habelə müvəqqəti saxlanc üçün onlardan alınmış əmlakın qorunmasını təmin etmək;

**11.1.3. biletlərin satıldığı və tamaşa nümayiş olunduğu yerlərdə afişalar asmaq, həmin afişalarda teatrın, tamaşanın, əsər müəllifinin (müəlliflərinin), quruluşçuların və ifaçıların (rol və partiyaları) adlarını, *həmçinin "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq tədbirin keçirilməsi barədə afişaların və digər***

***elanların üzərində tamaşanın aid edildiyi yaş kateqoriyasına dair işarəni*** **və teatrın zəruri hesab etdiyi digər məlumatları göstərmək;**

11.1.4. tamaşanın keçirildiyi yer, başlanacağı və bitəcəyi vaxt, biletlərin qiyməti, alınma və geri qaytarılma şərtləri, müəyyən tamaşaçı kateqoriyaları üçün nəzərdə tutulmuş güzəştlər, tamaşaçıların yaş məhdudiyyətləri haqqında tamaşaçılara ətraflı məlumat vermək;

**11.1.5. teatr biletində öz adını, ünvanını, biletin qiymətini, tamaşanın tarixini və saatını, tamaşaçının salondakı yerini, *o cümlədən "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq tamaşanın aid edildiyi yaş kateqoriyasına dair işarəni* göstərmək.**

11.2. Alınmış biletin pulu onu alan şəxsin arzusu ilə aşağıdakı hallarda geri qaytarıla bilər:

11.2.1. elan olunmuş tamaşa digəri ilə əvəz olunduqda və ya təxirə salındıqda;

11.2.2. elan olunmuş baş rol ifaçısı dəyişdirildikdə.

*11.3. "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun 24-cü maddəsinə uyğun olaraq, teatr tamaşası göstərilərkən reklam teatrın foyesində yayımlana bilər. Teatr tamaşasının gedişində reklam yayımlanması qadağandır.*

*11.4. "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikası Qanununun 14.1.4-cü maddəsinə uyğun olaraq, teatr tamaşalarında tütün məmulatlarının və tütün istifadəsi prosesinin nümayiş etdirilməsi qadağandır.*

**Nəşriyyat işi haqqında**
**Azərbaycan Respublikasının Qanunu**

***Maddə 20. Naşirlərin, çap məhsullarını hazırlayanların və yayıcıların məsuliyyəti***

Nəşriyyat və nəşriyyat işinin subyektləri:

– müəlliflik hüququ ilə qorunan əsərlərin müəlliflik müqaviləsi olmadan istehsalına;

– naşirlik fəaliyyətinin dayandırılması haqqında qərar qəbul olunduqdan sonra işin davam etdirilməsinə;

– dövlət standartlarını pozmaqla məhsul istehsal edilməsinə görə inzibati və maddi məsuliyyət daşıyır.

Nəşr olunmuş, müəlliflik hüququ ilə qorunan obyektlərin hüquq sahibinin icazəsi olmadan həmin obyektlərin tam, yaxud qismən surətinin çıxarıldığı (çap edildiyi) hallarda zərər çəkən hüquq sahibinin hüquqlarının bərpası Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təmin edilir.

Nəşriyyat hüququ olmayan təşkilatlardan qəbul edilmiş nəşrlərin poliqrafiya müəssisələri tərəfindən çapına, kitab ticarəti müəssisələri tərəfindən yayımına, həmçinin dövlət standartlarını pozaraq buraxılış məlumatları olmadan nəşrinə yol vermiş fiziki və hüquqi şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

***Uşaqlar arasında dövriyyəsi qadağan edilən və ya məhdudlaşdırılan informasiyanın istehsalçısı və yayıcısı "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərə riayət etməyə borcludur.***

**Reklam haqqında**
**Azərbaycan Respublikasının Qanunu**

***Maddə 12. Reklamda yetkinlik yaşına çatmayanların müdafiəsi***

12.1. Yetkinlik yaşına çatmayanlara mənəvi və fiziki baxımdan zərərli təsirin qarşısını almaq məqsədi ilə reklamda aşağıdakılar qadağan olunur:

12.1.1. valideynlərin, qəyyumların, himayəçilərin, tərbiyəçilərin və başqa şəxslərin nüfuzuna xələl gətirən, onlara olan etibarı zəiflədən məlumatların verilməsi;

12.1.2. başqa şəxsə münasibətdə kobudluğun, nifrət hissinin, təcavüzkarlığın, zərərli vərdişlərin aşılanması;

12.1.3. qüvvətləndirici və fərqləndirici sözlər vasitəsilə ailənin maddi vəziyyətindən asılı olmayaraq əmtəənin əldə edilməsinin mümkünlüyü fikrini yaratmaqla, valideynlərin və başqa şəxslərin bu əmtəəni almağa vadar edilməsinə yönəlmiş məlumatlar;

12.1.4. həyat və sağlamlıq üçün təhlükəli olan hərəkətləri nümayiş etdirməklə, onların təkrarlanmasına sövqetmə;

12.1.5. yetkinlik yaşına çatmayanlara aid olmayan əmtəənin reklamının onlar üçün nəzərdə tutulmuş kütləvi informasiya vasitələrində, teleradio proqramlarında (verilişlərində) yerləşdirilməsi;

12.1.6. yetkinlik yaşına çatmayanlara ünvanlanan yaxud onların iştirakı ilə yayımlanan reklamlarda uşaqların maraqlarına zərbə vuran ünsürlərdən istifadə olunması;

12.1.7. yetkinlik yaşına çatmayanların psixoloji gərginlik yarada biləcək vəziyyətlərdə göstərilməsi.

12.2. Yetkinlik yaşına çatmayanlara mənəvi və fiziki baxımdan zərərli təsir göstərə bilən reklam məktəbəqədər və ümumi təhsil

müəssisələrinin ərazisindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məsafədən yaxın yerləşdirilə bilməz.

**12.3. Uşaqlar üçün kino və video xidmətlərin göstərilməsi zamanı, uşaq teleradio proqramlarında və verilişlərində, uşaqlar üçün nəzərdə tutulmuş dövri mətbu nəşrlərdə yayılan reklam onun yerləşdirildiyi informasiya məhsulunun yaş kateqoriyasına uyğun olmalıdır.**

**12.4. Uşaqlar üçün nəzərdə tutulan informasiya məhsullarında (telekommunikasiya şəbəkələri, o cümlədən internet şəbəkəsi vasitəsilə yayılan informasiya məhsulları və sellülar (mobil) rabitə şəbəkəsi də daxil olmaqla) onların zərərli informasiya məhsulunun hazırlanmasına cəlb edilməsi barədə elanların yerləşdirilməsinə yol verilmir.**

### *Maddə 22. Dövri mətbu nəşrlərdə, yazılı bildirişlərdə, çap və audiovizual məhsullarda reklam*

22.1. Reklam xarakteri daşımayan dövri mətbu nəşrlərdə yerləşdirilən reklam müvafiq olaraq "reklam" və ya "reklam hüququ ilə" qeydləri edilməklə verilməlidir. Bu cür nəşrlərdə yerləşdirilən reklam dövri mətbu nəşrin ümumi həcminin 30 faizindən çox olmamalıdır (dövri mətbu nəşrin üz və arxa qabığında, qəzetlərin birinci səhifəsində verilən reklam istisna olmaqla).

22.2. Yetkinlik yaşına çatmayanlar üçün nəzərdə tutulmuş dövri mətbu nəşrlərdə onlara aid olmayan əmtəələrin reklamı qadağandır.

22.3. Əhaliyə göndərilən yazılı bildirişlərdə (forması rəsmi təsdiq olunmuş bildirişlər istisna olmaqla) reklam (həmin müəssisənin özü

barədə yerləşdirdiyi məlumat istisna edilməklə) onu göndərən müəssisə ilə reklamverici (reklam istehsalçısı, reklam agenti) arasında bağlanılan müqavilə əsasında yerləşdirilə bilər.

22.4. Dərslikdə, dərs vəsaitində, tədris materialında, məktəb gündəliyində, dəftərdə, albomda, yetkinlik yaşına çatmayanlar üçün nəzərdə tutulmuş kitabda reklam yerləşdirilə bilməz.

22.5. Dövri mətbu nəşrlərdə yayımlanan elanlarda (anonslarda) əmtəə nişanının, reklamvericinin, sponsorun adının və loqosunun yerləşdirilməsi reklam hesab olunur.

22.6. Audiovizual məhsulların qabının üzərində "reklamla" yaxud "reklamsız" qeydləri olmalıdır.

# Qeyd üçün

# Qeyd üçün

# Qeyd üçün

**Uşaqların zərərli informasiyadan qorunması haqqında Qanunvericilik**

Bakı – 2021

Kağız formatı 60×90 $^{1}/_{16}$.
Fiziki çap vərəqi 6. Tiraj 300. Sifariş 1.

"Letterpress" Nəşriyyat Evində çap olunmuşdur.